# Banklar sahibkarları necə qarət edir?

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№43 (3334) 19 Noyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

**ANA XƏBƏR**

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

## TƏBİB-in tibbi xidmətdən imtinasına qiymət verilmir

# Hərbi xidmətə çağırılanların tibbi yoxlanışında müəmma

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi öz işçilərini himayə edir?



## Abxazlar Rusiyadan xilas olmağa çalışır?

3-10

**GÜNÜN NƏBZİ**

Müsahibə



## "İsgəndər Həmidov MTN-nin istintaq fəaliyyətinə kobud müdaxilə etmişdi..."

Taryel Əliyev: "Təəssüf ki, Elçibəyin məsələyə münasibəti də digərlərindən fərqlənmədi..." 8-9

Cəmiyyət

## "Bu müharibədə də zəfər çalmalıyıq"

Könül Həbibqızı: "Narkomaniyaya qarşı mübarizədə bir yumruq ətrafında birləşməliyik" 12

Toplum

## "Metadon proqramı" nədir və nə kimi faydaları var?

Ekspertlər deyir ki, metadon heroindən istifadənin və ölümcül dozanın qarşısını alır, cinayətlərin sayını azaldır... 15

Xəbər

## Arvadına zülm verən avtoritetin ölümü...

Bakıdakı dəhşətli qətlin şok detalları 16

Yazar

## Xalq Şairi Vahid Əziz poeziyası haqqında bir neçə söz

("Tanıdığım şairlər" silsiləsindən) 14

LAYİHƏ



## Gənclərin mənəvi sağlamlığında təhsilin rolu

Kamran Əsədov: "Uşaq və gənclərin mənəvi inkişafı cəmiyyətin gələcəyi üçün böyük əhəmiyyət daşıyır" 11

LAYİHƏ



## Sosial medianın gənclərin psixikasına təsiri

Abdulla Şıxlinski: "Sosial mediada olan bəzi məlumatlar məhz insanların psixikasında müəyyən dəyişiklik etmək üçündür" 7

Aktual

## Əzəmətli ölkə, möhtəşəm diyar - doğma, əziz Türkiyə

Ölkəmizi təkrar olaraq 1920-ci ildə işğal etmiş, bağımsız cümhuriyyətimizi susdurmuş Rusiya bolşeviklər imperiyası özünün hər cür təbliğatıyla bizim türk olmadığımızı, əslində, Türk aləminin bizə "düşmən olduğu"nu sübutlamağa çalışırdı. Özəllikcə, Anadolu türklərilə bizlərin heç bir ilişgimizin "olmadığı"nı sübutlamağa cəhd edirdi. Bunun üçün çoxsaylı variantlardan yararlanırdı. 5

Sərbəst

## Reklamın ümumi tələbləri hüquqi müstəvidə

Narkotik vasitələrin, psixotrop maddələrin, pornoqrafiyanın, tütün və tütün məmulatlarının və bu Qanunla reklamı qadağan olunan digər məhsulların reklamına yol verilmir...

"Reklam haqqında" Azərbaycan Respublikası Qanunun (bundan sonra-Qanun) 2.0.1-ci maddəsinə əsasən reklam istehlakçısının diqqətini reklam obyektinə müxtəlif vasitə və üsullardan istifadə olunmaqla istənilən formada cəlb etmək, marağını formalaşdırmaq və saxlamaq, əmtəəni bazarda tanıtmaq və satışını stimullaşdırmaq məqsədi ilə yayımlanan məlumat hesab olunur. 13

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№43 (3334) 19 Noyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik

# Arvadına zülm verən avtoritetin ölümü...



**2021-ci il dekabrın 10-da Bakının Suraxanı rayonunda qətl hadisəsi olur. Daxil olan məlumatla əlaqədar polis və prokurorluq əməkdaşları dərhal hadisə yerinə yollanırlar. Məlum olub ki, hadisə Binə qəsəbəsinin Hövsan südçülük sovxozunda, fərdi evin həyətində baş verib. Çənəsinin altında odlu silah yarası ilə 1978-ci il təvəllüdlü Allahverdi Mirzəyevin meyiti aşkar edilib.**

Həmin axşam 30-cu Polis Şöbəsinə dəvət olunan Bakı şəhər sakini 1978-ci il təvəllüdlü Taryel Qurbanov cinayəti törətdiyini etiraf edib.

İstintaqla müəyyən edilib ki, Taryel Qurbanov yeznəsi Allahverdi Mirzəyevin bacısı Təranə Mirzəyevaya xəyanət etməsi, pulları başqa qadına xərcləməsi, mütəmadi ailələrində mübahisələr baş verməsi səbəbindən onu qisas məqsədi ilə öldürmək qərarına gəlib. Dekabrın 10-u saat 19 radələrində 16 kalibrli ov tüfəngi ilə silahlanaraq bacısının evinə yollanıb. Ailə üzvlərindən xəbərsiz həyətdə gizlənərək, yeznəsinin evə qayıtmasını gözləyib. Allahverdi Mirzəyevin həyətə girdiyini görən kimi qarşısına çıxıb və tüfəngin lüləsini onun çənəaltı nahiyəsinə istiqamətləndirərək, bir dəfə atəş açıb. Nəticədə A. Mirzəyev ölüb.

İş üzrə dindirilmiş Taryel Qurbanov bildirib ki, 2001-ci ildə Ülviyyə Qurbanova ilə ailə həyatı qurub, nikahdan 2 övladları dünyaya gəlib. Yaşadıqları həyətyanı sahədə digər evdə bacısı Pərvanə öz övladları ilə yaşayıb:

"Digər bacım Təranə 1994-cü ildə Allahverdi Mirzəyevlə ailə həyatı qurub. Əvvəllər məhkum olunmuş Allahverdi deməkolar ki, hər gün arvadını döyürdü.

Bundan başqa, yeznəm Nuranə adlı qadınla yaxın münasibətdə idi, onun üçün ev tikdirmişdi. Qardaş kimi bunu özümə sığışdıra bilmirdim. Dekabrın 10-da Allahverdi evə gələrək yenə Tərananin boynundakı qızıl boyunbağını istədi. Yoldaşı buna etiraz edəndə üzünə yumruqla vuraraq, boyunbağını ondan aldı. Bundan sonra bacım ağlayaraq "WhatsApp" təthiqi ilə zəng edib, görüntülü anamızla danışıb. Saat 19 radələrində tüfəngi zirzəmidən götürdüm. Silahı 2 yerə qatlayıb, gödəkcəmin altında gizlədərək bacımın evinə yollandım. Darvazanın qarşısında dayanan, Allahverdiyə məxsus "İkarus" markalı avtobusun altında tüfəngi gizlədərək həyətə daxil oldum. Evdə bacım və ailəsi ilə oturub, söhbət etdim. Bir müddətdən sonra sağollaşıb çölə çıxdım. Silahı avtobusun altından götürərək, yenə sakitcə həyətə girdim və "əl damı" deyilən təsərrüfat tikilisində gizlənərək, yeznəmin evə qayıtmasını gözlədim. Təxminən 5 dəqiqədən sonra Allahverdi həyətə daxil olan kimi, əlimdə tüfənglə çıxaraq, onunla üzüzə dayandım. Yeznəm "burda nə axtardığımı?" soruşanda, ona "bacıma deyirdin ki, qardaşların kişi deyil, ona görə gəlmişəm" dedim və nişan almadan üzünə silahdan atəş açdım. Allahverdi yerə yıxılan kimi, dərhal küçəyə çıxaraq, öz evimə qayıtdım. Tüfəngi götürdüyüm yerə qoydum. Bacım oğlu Hüseynə zəng edib, həyətə girəndə qorxmamasını və atasını öldürdüyümü dedim. 30-cu Polis Şöbəsində törətdiyim cinayəti etiraf etdim".

Şahid Təranə Mirzəyeva ifadəsində göstərib ki, yoldaşı Allahverdi bir nəfərə odlu silahdan atəş açdığı üçün 3 il 6 ay müddətinə azadlıqdan məhrum olunub. Azadlığa buraxılandan sonra əri yaşadıqları məhəllədə müxtəlif qadınlarla münasibət yaradıb:

"Onlarla görüşəndə, telefonuna çəkdiyi videogörüntüləri gətirib mənə göstərirdi. Axırıncı dəfə bir uşağı olan Nuranə adlı qadınla yaxın münasibətdə idi. 2021-ci ilin yayında yaşadığımız evi anasının adından çıxararaq mənim adıma keçirdi. Sonra isə evi girov qoyaraq bankdan 150.000 manat pul götürdü. Özünə "Mercedes Gelendevagen" markalı avtomobil aldı.

Nuranə həmin maşını Binə qəsəbəsində sürərkən hər kəs buna şahid olmuşdu. Allahverdi cəzaçəkmə müəssisəsində olan dostlarına müxtəlif məbləğlərdə pul vəsaitləri, ərzaq və paltar göndərirdi. Qardaşlarım Taryel və Ceyhun Allahverdinin mənə verdiyi işgəncələrdən xəbərdar idilər. Dekabrın 10-da Nuranənin qızının ad günü olduğu üçün Allahverdi evə gələrək pul lazım olduğunu bildirdi. Etiraz edib telefonla övladlarımın dərslərə onlayn qoşulduqlarını söylədikdə Allahverdi qulaq asmayaraq, telefonu əlimdən aldı. Boğazımdakı qızıl boyunbağını zorla dartıb qopardı. Boyunbağını verməkistəməyəndə yumruqla alnıma zərbə vurdu. Balaca qızım baş verənləri görmüşdü. Axşam evdə olanda, qapının döyüldüyünü eşidib çölə çıxdım. Qayınanamın ağlayıb qışqırdığını və Allahverdinin yerdə, hərəkətsiz vəziyyətdə qaldığını gördüm. Bundan sonra polis əməkdaşları gələrək, bizi şöbəyə apardılar. Orda bildim ki, Allahverdini qardaşım Taryel öldürüb".

Şahid Nuranə Əliyeva ifadəsində göstərib ki, 2016-ci ildə Kənan Fətəliyevlə ailə həyatı qurub və 4 ildən sonra ondan boşanıb:

"2020-ci ilin yay aylarında Allahverdi Mirzəyevlə tanış oldum, onun istəyi ilə birlikdə ər-arvad kimi yaşayırdıq. Allahverdi mənə Binə qəsəbəsində ayrıca kirayə ev tutmuşdu. Həftədə iki dəfə mənimlə qalırdı. Allahverdinin arvadı Təranə 2021-ci ilin fevral ayında işlədiyim salona gələrək, ərindən uzaqlaşmağımı tələb etdi. Avqustun 28-də Allahverdi məni döydüyü üçün 30-cu şöbəyə şikayət etdim. Amma 2 aydan sonra mənimlə barışdığı üçün ərizəni geri götürdüm. Dekabrın 10-da axşam Allahverdinin yaşadığı evin həyətində qaynı Taryel tərəfindən öldürüldüyünü öyrəndim".

Məhkəmə iclasında Taryel Qurbanov ittiham üzrə özünü təqsirli bilib. Zərərçəkmiş şəxsin hüquqi varisi təqsirləndirilən şəxsə ağır cəza verilməsini istəyib.

Məhkəmə nəticəyə gəlib ki, Taryel Qurbanovun Allahverdi Mirzəyevi qəsdən öldürməsi, mötəbər sübutlarla tam təsdiq olunduğundan onun əməli ibtidai istintaq orqanı tərəfindən Cinayət Məcəlləsinin 120.1-ci maddəsi ilə düzgün ixtisaslaşdırılıb. Odur ki, Qurbanov həmin maddənin sanksiyası həddində, qanunla müəyyən edilmiş qaydada cəzalandırılmalıdır.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Taryel Qurbanov cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 11 il 6 ay müddətinə azadlıqdan məhrum olunub.

## Əyləncə səhifəsi

# Niyə gənc kişilər öz yaşlarında qadınlarla görüşmək istəmirlər?



**Tanışlığın son on ildə dramatik şəkildə dəyişdiyini inkar etmək olmaz, daha çox subaylar Tinder və Bumble kimi tanışlıq proqramlarında romantika tapır və insanlarla tanış olmaq üçün sosial mediadan istifadə edir.**

Lent.az xəbər verir ki, məşhur psixoterapevt və seksoloq Dr Tammy Nelson verdiyi müsahibədə bir çox gəncin internetdə lağ edilməkdən ”qorxduqları” üçün öz yaşlarında qadınlarla görüşməkdən çəkindiyini açıqlayıb.

“Deyirlər ki, görüşə getməkdən qorxuram, çünki səhv bir iş görsəm, sosial şəbəkədəki bütün dostlarım bundan xəbər tutacaq, bilmədiyim bir şeydə, hətta yaxşı şeylərdə ittiham olunacağam. Gənc kişilər yaşlı qadınlarla belə bir təhlükə olmadığını bilirlər, çünki onlar TikTok kimi proqramlardan daha az istifadə edirlər” deyə həkim bildirib.

”Yaşlı qadınlar sosial şəbəkələrdə tanışlıq təfərrüatlarını yazmırlar. Onlar daha ehtiraslı və təcrübəlidirlər, seksual olaraq nə istədiklərini bilirlər, yataqda istədiklərini deyir, utanmır, öz bədənlərini tanıyırlar. Yaşlı qadınlar yataqda gənc kişilərin dözümlülüyünə heyran olurlar. 25 yaşındasınızsa, yenidən ereksiyaya sahib olmaq üçün sizə 20 dəqiqə lazım olacaq; 60 yaşınız varsa, bu, iki gün çəkə bilər, buna odadavamlı dövr deyilir.

Bu cür münasibətlərin zamanın sınağına tab gətirə biləcəyini və “sadəcə seksdən” daha çox şeyə çevrilə biləcəyinə gəlincə onu deyə bilərəm ki, insanların yataqları insana güvənlərini inkişaf etdirmələri üçün vaxt, diqqət, vaxt lazımdır. Öncə məhəbbət, sonra cinsi əlaqə.” - deyə doktor Nelson vurğulayıb.

Onun sözlərinə görə, yaş fərqi romantik münasibətlərdə problemlər yarana bilər, lakin bu, ”mütləq qırılma nöqtəsi” deyil.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

“Hürriyyət” qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31

Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və “Futbol+ servis” mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# TƏBİB-in tibbi xidmətdən imtinasına qiymət verilmir

## 10 ilin ürək, şəkər, parkinson xəstəsinə TSEK-ə göndəriş verilmir

**Ağsu rayonu, Pirhəsənli kənd sakini, 62 yaşlı Xasayev Samir Alxan oğlunun 10 ildən çoxdur ağır ürək, şəkər, yüksək qan təzyiqindən, parkinson xəstəliyindən yatağa düşməsinə TƏBİB heç bir reaksiya vermir, faktiki olaraq tibbi xidmətdən imtina edir. Xəstə sonuncu dəfə 11.10.2024-cü ildə Ağsu RMX-nın göndərişi ilə xərəkdə Şamaxı Həkim Məsləhət Komissiyasının (HMK) yoxlamasına aparılıb, amma komissiya, ümumiyyətlə xəstəyə baxmaqdan imtina edib. (?) Komissiya xəstəyə baxıb forma-88 arayışını ƏƏSMN tabeliyində Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə (DTSERA) göndərmək yerinə, xəstəni gətirən ailə üzvləri ilə "sənəd çatışmazlığı" davası edib və qərəzlə xəstənin durumuna göz yumub. Halbuki həmin gün Ağsudan 2 həkimin gətirdiyi sənədlər yoxlamadan keçmədən ƏƏSMN altsisteminə vurulub.**

Xəstənin ailə üzvlərinin son bir aylıq şikayətlərinə isə TƏBİB cavab verməkdən belə imtina edir. Halbuki tibb xidməti xəstənin ağır durumuna görə onun ailə üzvlərinə qərəz göstərməsi yolverilməzdir. TƏBİB-in əsas işi xəstələrə tibbi xidmət göstərməkdir. Çoxsaylı şikayətlərdən sonra TƏBİB-in müraciətlərlə iş şöbəsi xəstənin oğluna cavab verib ki, Şamaxı HMK NK-nın qərarı ilə əlillik meyarlarının xəstəyə əlillik təyinatına yol vermədiyi əsası ilə imtina edilib. Birincisi, əlillik təyinatını ƏƏSMN tabeliyində DTSERA həyata keçirir. DTSERA isə rəsmi məktubla bildirib ki, f-88 göndəriləcəyi halda, əlillik qiymətləndiriləcək. 2-cisi, NK-nın qərarında təkcə yüksək qan təzyiqinə görə 1-ci dərəcəli əlillik təyinatı aparılması təsbit olunub. TƏBİB hansı meyarlara istinad edib, şəkərdən gözü tutulan, 2-3 -cü tip ürək çatmazlığı, 180-200 hipertonik təzyiqi, diabetik angiopatiya, diabetik retinopatiya, diabetik polinevropatiya, sabit gərginlik stenokardiyası II-III f/s , Parkinson xəstəsinə əlillik düşmədiyini qərara alıb? 3-cüsü və ən başlıcası, hanı bu 11.10.2024-cü il tarixli imtina qərarı? Xəstəni yoxlamadan, heç üzünə belə baxmadan hansı vicdan(-sızlıq)la belə imtina qərarı verilib və niyə xəstəyə təqdim olunmur ki, ondan inzibati icraat qaydasında, yuxarı orqana, məhkəməyə şikayət verilə bilsin?

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTS DA) sədri Zaur Əliyevə, TƏBİB sədri Vüsal Qurbanova çoxsaylı şikayətlərə, hələ ki, müraciətlərlə iş şöbəsinin şablon cavabı verilir. Bəyəm müraciətlərlə iş şöbəsi xəstəyə tibbi yardımdan imtinaya cavabdehdir? Ailəsi xəstəyə tibbi yardımdan , sənədinin ƏƏSMN-ə göndərilməməsindən, xəstənin həyatını təhlükəyə atılmasından şikayət edir, müraciətlərlə iş şöbəsi Şamaxı HMK-nın xidmətdən imtina etməsini təkrarlayır? Belə tibbi xidmətlə xəstəni yalnız öldürmək mümkündür. Onda kim cavab verəcək?

Ali dövlət hakimiyyəti, hüquq orqanlarına, Ombudsmana şikayətlər İTS DA-ya, oradan TƏBİB-ə göndərilir, yardımsız cavabı isə müraciətlərlə iş şöbəsi təkrarlayır. Fikrimizcə, xəstənin həyatını təhlükəyə atdığına görə TƏBİB-in, Şamaxı HMK-nın məsul şəxslərinin məsuliyyəti məsələsinə baxılmalıdır. Bu məsələyə baxmaq isə prokurorluğun boynundadır.

**P. Həsənli**

# Həqiqi hərbi xidmətə çağırılanların tibbi yoxlanışında müəmma

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi öz işçilərini himayə edir?



**Məlum olduğu kimi, dövlət başçısı tərəfindən 6 sentyabr 2023-cü il tarixdə "Müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalanmışdır.**

Fərmana əsasən, bir sıra kateqoriya üzrə rəy verilmiş hərbi xidmətə çağırılanlarla bağlı yekun tibbi müayinəni bu ildən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

Yekun tibbi müayinəni Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi (DTSERA) hərbi-həkim komissiyalarının tibbi müayinəsinin nəticələri və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların əyani tibbi müayinəsi əsasında aparır.

Bəs Nazirliyin özündə bu sahədə şəffaflıq hansı səviyyədədir? Əldə etdiyimiz məlumata əsasən, nazirlik vətəndaşlara bu sahədə xüsusi tələbkarlıqla yanaşsa da, öz işçilərinə, ələxüsus vəzifəli şəxslərinə olduqca yumşaq standartlar tətbiq edir və onlara münasibətdə bu məsələlərə göz yumur.

Redaksiyamıza daxil olan məlumata görə, bu nazirliyin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyətinin 6 fevral 1989-cu il təvəllüdlü sədri Elnur Səfərli Novruz oğlu hətta Azərbaycanın vaxtilə işğalda olmuş Cəbrayıl rayonundan olmasına baxmayaraq, hərbi xidmətdə olmamışdır. Onun hərbi xidmətdən yayınması səhhətinin buna imkan verməməsi və hərbi xidmətə yararsızlığı ilə əsaslandırılsa da, bu şəxs nazirlikdə işə qəbul edilərkən tam sağlam və fəaliyyət qabiliyyətli olması ilə bağlı "Forma 86" sağlamlıq haqqında arayış təqdim etmişdir.

Necə olur ki, vətən qarşısında borcunu yerinə yetirmək, kişi cinsindən olan vətəndaş kimi hərbi xidmətini icra etmək lazım olanda Elnur Səfərlinin sağlamlığı buna imkan vermir, amma vəzifəyə, kresloya, işə və imtiyazlara çatanda bu adam tam sağlam şəxsə çevrilir?!

Babalarının erməni tapdağı altında qalan məzarlarının, doğulub böyüdüyü yurd-yuvasının, ata ocağının təəssübünü, qeyrətini çəkməyən, hərbi xidmətdən yayınan birisi vəzifə məsuliyyətini necə dərk edə bilər?

Təsadüfi deyildir ki, Milli Observatoriyanın adı mediada qurumun keçmiş sürücüsü yaralı qazi Elmar Şərifovun onun gecə-gündüz vəzifəli şəxslər tərəfindən istismar edilməsi ilə hallanmışdı. Hətta əldə etdiyimiz məlumata görə, Elnur Səfərli həmin qurumda çalışan şəhid Ələkbər Məmmədovun övladını şəxsi qisas zəminində inzibati üsullarla təqib etmişdir.

İşğalda olmuş rayondan olmasına baxmayaraq, hərbi xidmətdən yayınmış, rəhbərlik etdiyi qurumda yaralı qaziyə və şəhid övladına "qan udduran" Elnur Səfərli Zəfər günü və digər bu kimi bayramlar ərəfəsində hardansa bir şəhid ailəsi tapıb özünü şəkil çəkdirmək üçün ora yetirir. Görünür ki, belələrinə şəhid ailəsi məhz foto çəkdirmək və ucuz reklam üçün lazımdır.

### "Vətənpərvərlik" əclafların son sığınacağıdır

Əldə etdiyimiz məlumata əsasən, heç bir elmi dərəcəsi, iqtisadiyyat, sosial sahə və məşğulluq sahəsində nəinki təhlil və tədqiqatları, hətta təhsili və mütaliəsi belə olmayan Elnur Səfərli heç bir əhəmiyyətli idarəetmə təcrübəsi və qabiliyyəti olmadan həmyerlisi, nazirliyin Aparatının Strateji planlaşdırma və innovasiya şöbəsinin müdir müavini Rəşad Zalovun və həmin şöbənin keçmiş müdiri, hal-hazırda Dövlət Məşğulluq Agentliyinin sədri, eyni regiondan olan Sadiq Əliyevin himayəsi ilə sosial sahədə "Beyin Mərkəzi" funksiyası yerinə yetirməli olan bu quruma rəhbər təyin edilmişdir.

### Sahil Babayevin kontorunda "qumar"

Xatırladaq ki, "Hürriyyət"in ötən sayında sözügedən qurumun rəhbərliyi və əməkdaşlarının iş vaxtı ərzində nərd oynamaqla məşğul olduğu haqda məlumat vermişdik. Qeyd etmişdik ki, gənclərin işsizlik problemini həll etməli, onların məşğulluğunun təmin olunması üçün çıxış yolları axtarmalı olan qurum bu istiqamətdə strateji təhlillər aparmaq və ali rəhbərliyə çıxış yolları təklif etmək əvəzinə, daha "strateji" və "daha böyük" işlərlə məşğul olmaqda, nərd taxtadakı daşların konfiqurasiyasını müəyyənləşdirmək üzərində "baş sındırır".

Redaksiyamıza daxil olan məlumata görə, bekarçılıqdan təşkil edilən belə nərd çempionatında uduş fondu müvafiq olaraq qalibə 300 manat, ikinci yerin sahibinə 200 manat, üçüncü yerin sahibinə isə 100 manat təşkil etmişdir.

Elə buna görə də kifayət qədər yüksək iqtisadi potensialı, resursları, kadr ehtiyatları, məşğulluq yaratmaq qabiliyyəti olan Azərbaycanda ali təhsil müəssisələrinin məzunları ilə iş yerləri Xalq şairimiz Məmməd Arazın təbirincə desək, "yüz il qoşa atılsa da, qoşa düşə bilmir". Çünki müvafiq sahədə səmərəli idarəetmə qərarlarının qəbul edilməsi istiqamətində rəqabətqabiliyyətli fundamental təhlillər təqdim etməli olan qurum rəqabətqabiliyyətli nərd həvəskarları yetişdirməklə məşğuldur.

Bəzi mənbələr bildirir ki, bu qurumun ilkin yarandığı dövrdə kifayət qədər əhəmiyyətli kadr potensialı mövcud olmuş, lakin bura "paraşüt"lə endirilmiş təsadüfi şəxs olan Elnur Səfərlinin səriştəsiz və səbatsız rəhbərliyi nəticəsində kadr potensialı zaman-zaman aşındırılmış və yüksək ixtisaslı mütəxəssisləri sonuncunun tanışları, dostları və yaxın ətrafından olan işsiz şəxslər əvəz etmişdir. Heç bir elmi dərəcəsi, elmi tədqiqatları və dövlət idarəetmə təcrübəsi olmayan belə bir şəxsin strateji beyin mərkəzinə rəhbərlik etməsi təəccüblüdür.

Məlumat üçün bildiririk ki, Milli Observatoriyanın adı daha öncə mətbuatda müxtəlif xarakterli qalmaqallarla, o cümlədən İdarə Heyətinin üzvü Hasil Abbasovun qurumun sürücüsü, II Qarabağ müharibəsi qazisini istismar etməklə yadda qalmış, qurumla bağlı bir sıra şikayət xarakterli vətəndaş müraciətləri daxil olmuşdur.

**KƏNAN**

**Redaksiyadan: Mövzunu davam etdirəcəyik. Qarşı tərəfin mövqeyini də dərc etməyə hazırıq.**

Ötən həftə regional miqyasda təlatümlü bir hadisə ilə yaddaqalan oldu - Abxaziyadakı iğtişaşlarla. Çaxnaşma Rusiya ilə investisiya sazişinə baxılması fonunda alovlandı. Sənəd noyabrın 15-də ratifikasiya edilməli idi. Amma məsələ Abxaziyanın yerli əhalisi, eləcə də müxalifəti tərəfindən birmənalı qarşılanmadı, hətta tam əksinə, neqativ şəkildə reaksiya ilə üzləşdi.



# Abxazlar Rusiyadan xilas olmağa çalışır?

## Son vaxtlar Abxaziyada ortaya çıxan "müstəqillik" tələblərinin arxasında hansı maraqlar dayanır?

Məsələni Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Reşetnikov belə qələmə verdi ki, bu sənədlə Abxaziya iqtisadiyyatına əlavə investisiyalar cəlb ediləcək. Ruslar kənd təsərrüfatının, istehsalatın, turizmin və rekreasiyanın inkişafına, eləcə də infrastruktur layihələrinə pul yatıra biləcəklər və bu Abxaziyaya iqtisadi rentabel gətirəcək.

Ancaq, dediyimiz kimi, hər kəs bu məlumatı birmənalı qəbul etmədi. Müxalifət hesab edir ki, hakimiyyət Abxaziya torpaqlarını rus iş adamlarına satmağa hazırlaşır. Müxalifətin liderlərindən biri, keçmiş Milli İqtisadiyyat naziri Adqur Ardzinba vəd verdi ki, "ratifikasiya edilməsi istənilən, oliqarxlara məhdudiyyətsiz imtiyazlar verməк və Abxaziyanı satmaq üçün yaşıl işıq yandırmaq istənilən bu saziş dayandırılacaq".

Noyabrın 11-də isə Abxaziya parlamenti Rusiya-Abxaziya sazişində haqqında söhbət gedən ölkədə çoxfunksiyalı komplekslərin statusunu tənzimləyən qanun qəbul etdi. Bundan sonra, Baş Prokurorluğun məlumatına görə, parlament binasının həyətində bir qrup şəxs deputatlardan birinə qarşı "qanunazidd hərəkətlər" edib. Nəticədə dörd nəfər - keçmiş parlament üzvləri Qarri Kokaya, Almasxan Ardzinba, Ramaz Çjopua, həmçinin müxalifət fəalı Ömər Smir saxlanılıb.

Ötən bazar ertəsi axşam saatlarında etirazçılar məhbusların azad edilməsini tələb etdilər və Dövlət Təhlükəsizlik Xidmətinin binasına soxulmağa cəhd etdilər. Onlar federal magistral yolu bağladılar və traktorlarla iki körpünü bağladılar, təkcə Rusiyanın cənubu ilə deyil, həm də tanınmamış respublikanın şərq hissəsi və Suxumi ilə əlaqəni kəsdilər.

Rusiya-Abxaz münasibətləri üzrə ekspert Anton Krivenyuk belə bir fikir səsləndirib ki, Rusiya Federasiyası ilə investisiya sazişi Abxaziya üçün böyük layihədir və bu, korrupsiyalaşmış oyun qaydalarından asılıdır. Onun sözlərinə görə, hər şey belə işləyir: "Bir rus Abxaziyaya gəlir, burada onun heç bir hüququ yoxdur və ona torpaq almaq təklif olunur, lakin böyük şərtlərlə. Məsələn, onu öz adınıza qeydiyyatdan keçirməmək, yerli qrupların ortaqlığına sərmayə qoymaq. Bütün bunlar bir çox şərtləri irəli sürür ki, bununla əcnəbi əldə etdiyi torpaqları və biznes aktivlərini itirə bilər. Abxaz cəmiyyətini bu qane edir. Onlar ruslardan pul almaq, sonra bu pulu onlara "atmaq" istəyirlər. Mən demirəm ki, ölkədə hamı belə işləyir, amma bu var. Ruslar isə, əksinə, yerli sakinləri nəzərə almadan Rusiya qanunlarına uyğun gəlib, burada hər şeyi almaq və işləmək istəyirlər. İndi bu iki tərəf arasında toqquşmalar var".

Krivenyukun sözlərinə görə, müxalifət təkcə burada Rusiya biznesinin olması ilə razılaşmadığından deyil, hakimiyyətə gəlmək və abxaz resurslarının satışına nəzarəti ələ keçirməkdən ötrü çaxnaşma yaradır.

Amma məsələyə başqaprizmadan yanaşanlar da var. "Bir vaxtlar Rusiya Abxaziyanın müstəqilliyini tanıyıb", deyən politoloq Nika Çitadze qeyd edir ki, "indi eyforiya keçib və Abxaz cəmiyyətində çoxları başa düşür ki, müstəqillikdən söhbət gedə bilməz. Gürcüstandan qoparaq bu bölgə ancaq başqa dövlətin nəzarəti altına keçib. Abxaziya büdcəsinin 70%-i Rusiya Federasiyasından transfertlər hesabına formalaşanda hansı müstəqillikdən danışmaq olar?"

"Burada başqa bir problem var", deyən politoloq Gela Vaşadze, "Abxazlar yox olmaq təhlükəsi ilə üz-üzə olan kiçik xalqdır. Və açıq-aşkar görünür ki, Rusiya Federasiyası onların bir etnik qrup kimi qorunub saxlanmasında maraqlı deyil. Bu gün biz etnik müqaviməti özünü qorumaq uğrunda mübarizədə görürük. Ancaq başa düşmək lazımdır ki, geniş muxtariyyətə sahib olmaq və praktiki olaraq işğal altında olmaq mümkün deyil. Onlar simulyator yaradıb, uzun müddət bu dünyada yaşayıblar, amma indi sərt reallığa qayıdırlar", sözləri ilə prosesə daha obyektiv raksursdan baxışını ortaya qoyur.

Amma necə deyərlər, sözümüzün canı başqadır. Xatırlayırsınızsa, Gürcüstandakı parlament seçkilərində "Gürcü arzusu"nun sponsoru Bidzina İvanişvili sevincək Rusiyanın Abxaziya və Cənubi Osetiyadan əl çəkməyə hazırlaşdığını və Kremlin bu iki subyektin Gürcüstanın tərkibinə qayıtmasına etiraz etmədiyini tribunadan elan etdi. Hərçənd, Rusiyanın XİN rəhbəri Lavrov sonradan bu söhbətin həqiqəti əks etdirmədiyini və təkzib xarakterli bəyanatlarla Bidzina İvanişvilinin yalanını ortaya çıxardığını göstərmiş oldu. Amma o zaman üçün məsələ açıq qaldı. Rusiyanın Abxaziyaya qarşı niyə "lütfkar"olduğu sual doğurur.

Hardasa bir il əvvəl - 5 oktyabr 2023-cü il tarixində Rusiyanın Gürcüstanın separatçı Abxaziya regionunun Qara dəniz sahilində daimi hərbi-dəniz bazası yaradılması haqqında saziş imzalaması xəbəri mediada yayılmışdı. Bunu Abxaziya lideri açıqlamışdı. Gürcüstan isə Abxaziyada Rusiya Hərbi Dəniz Qüvvələrinin yaradılması planları ilə bağlı xəbərləri "suverenliyin açıq şəkildə pozulması" adlandırmışdı. "Biz saziş imzalamışıq və yaxın gələcəkdə Oçamçira bölgəsində Rusiya Hərbi Dəniz Qüvvələrinin daimi bazası olacaq", deyə "İzvestiya" qəzeti Abxaziya lideri Aslan Bjaniyanın sözlərindən sitat gətirirdi.

Bjaniyanın fikrincə, bu, həm Rusiyanın, həm də Abxaziyanın müdafiə qabiliyyətini artıracaqdı. O, bu barədə Rusiya prezidenti Vladimir Putinlə görüşdən bir gün sonra açıqlama verməmişdi.

Moskvanın 2014-cü ildə Krımla birlikdə ilhaq etdiyi Sevastopolda yerləşən Rusiyanın Qara dəniz donanması 2022-ci ildə Ukraynaya müdaxilə başlayandan bəri Ukrayna qüvvələrinin dəfələrlə hücumlarına məruz qaldı. Məlumdur ki, Rusiya Abxaziyanın və Gürcüstanın digər separatçı regionu Cənubi Osetiyanın "müstəqilliyini" 2008-ci ilin avqust müharibəsindən sonra tanıyıb. "Reuters"in qeyd etdiyinə görə, Qərb Rusiyanı Abxaziya və Cənubi Osetiyanı ilhaq etməkdə günahlandırdı və 2009-cu ildə Oçamçirada Rusiya bazası haqqında danışılanda NATO bundan narahat olduğunu bildirdi.

Qara dəniz ölkələrindən üçü - Türkiyə, Bolqarıstan və Rumıniya NATO üzvüdür. Dünyanın əksər hissəsi Abxaziyanı Gürcüstanın bir hissəsi kimi tanıyır. Abxaziyanın müstəqilliyini Rusiyadan başqa yalnız Venesuela, Nikaraqua, Nauru və Suriya tanıyıb. Bjaniya ilə görüşdə Putin dəniz bazası haqqında heç nə deməsə də, bununla belə, Bjaniya "Rusiya tərəfinin təşəbbüsü ilə həyata keçirilən inteqrasiya proseslərində" iştirak etmək istədiyini bildirmişdi.

*(Ardı səh. 10-da)*



# Kor nə istər?..

## (Görəsən, müxalifətlə iqtidar güləşsə hansı yıxar?..)

Mənə deyirlər:
- Sənnən gözümüz su içmir.
Deyirəm:
- Niyə?
Deyirlər:
- Çünki sən hətərən-pətərən danışırsan!..
Deyirəm:
- Noolsun, sizin də ağıl dişləriniz qulaqlarınızdan çıxır!..

Nəysə... Burada ərz eləyim ki, mən siyasətçi-zad deyiləm, siyasətlə məşğul olmuram, olmamışam, heç olmayacağam da. Amma bu, mənim siyasətdən tamam bixəbər olduğum anlamına gəlmir.

Yəni elə mətləblər var ki, onu bilmək üçün siyasətçi, ya politoliq-filan olmaq vacib deyil... Şəxsən mən, sanıram ki, bir çox qəliz mətləblərdən agaham və nə qədər hətərən-pətərən danışsam da, yüz vətənşüvənə dəyərəm...

Yaxşısı budur, şeytana «lənət» deyibən, mətləbə keçək.

Misalçün, bu gün müxalifətin məqsəd və məramını kor da görür, kar da eşidir.

Nədi onların istəyi?.. Şübhəsiz, müxalif bəylər cəmi millətin xeyir-duasıyla düzəməlli bir seçki keçirib, hakimiyyətin Olimpinə çıxmaq arzusundadılar. Güman edirlər ki, həmin o zirvəyə qalxıb məmləkətə bir azca əminamanlıq, bir azca da rahatlıq gətirə bilərlər. Mən bunu anlayıram, qəbul da edirəm.

Çünki bu, "aydan arı, sudan duru" olan bir məsələdir və adına da - strategiya deyirlər. Amma, ayıb olmasın, nə qədər əlləşib-vurnuxsam da, müxalif bəylərin taktikasından, yəni onların bu gediş-gəliş-gərdişlərindən bir şey anlamıram...

Baxın, əgər bu taktika dediyimiz «şey»i strategiya dediyimiz «zad»a tərəf gedən bir YOL kimi qəbul eləsək və ona MƏQSƏDƏ yetişməkçün VASİTƏ kimi baxsaq, onda görərik ki... müxalifətin taktikasında böyük hərc-mərclik və ondan da böyük həftəbecərlik var (yaxşı ki, «eybəcərlik» demədim).

İnanmırsızsa, bəndəniz bittə-bittə sadalasın, - nəticəni özünüz hasil eləyin...

Müxalifət nə illah eləsə də, onillərdi ki, özünə əməli-saleh bir lider, başçı və vahid namizəd seçə bilmir. Düzdümü? Əlbəttə, düzdü. Bu gün «məmə yeyəndən pəpə deyənə qədər» bunu anlamayan, yəni anlayıb qımışmayan bir Allah bəndəsi varmı? Yoxdu.

Nikolayın evini yıxan pıç-pıçlar, dedi-qodular belə əcaib-qəraib məsələlərdən yaranmırmı? Di gəl, bundan baş çıxar görüm, necə çıxarırsan?..

Birisi əllərini uzadıb sidq-ürəklə (bəlkə də, yalandan) deyir ki, a bəylər, gəlin, əl-ələ verək, həmrəy olaq, həmrəng olaq; yaxası dar olan qəşəng bir köynək geyib qol-boyun olaq, seçkiyə-filana da elə beləcə gedək... Digəri isə, qayıdıb hikkəylə (bəlkə də, artistlik eləyir), deyir ki, yox a, nə danışırsan, əlini çək, yaxamdan tutub dartma, dartsan, yıxılıb donbalağ aşacam...

...Elə bil, Tıq-tıq xanımın oyununu çıxarırlar: «Əlini mənə pəstərəcik», «Yox, mən səndən küsdərəcik!..»

...Bu siyasət biliciləri, yəni bu "dartma yaxam cırıldı"- lar niyə belə eləyirlər? - bax, bunu anlamıram, başa düşmürəm.

Bəli, bunlar mənim bugünkü müxalifətimin TAKTİKASIDIR. Və səd heyif ki, bu, zəqqum dadan yekə, çooox yekə bir HƏQİQƏTDİR.

İndi keçək iqtidar cənablarının strategiyası və taktikasına.

Burada tərsinədi, - yəni iqtidarın taktikası məlumdu, strategiyası yox. Niyə? Əslində, bunun heç «niyə»si yoxdu; çünki «iqtidar» dediyimiz bərkgedənlərin strategiyası "qaranlıq otaqdakı qara pişiyin" qara quyruğunda olsa da, taktikaları ovuc içi kimi göz qabağındadır. Onların «humanist» və "müdrik" üsul-idarəsinin «hurrey»i zavalı xalqı elə hala salmaqdır ki, ölkə acından qarnı qurqur quruldayanların sayına görə Ginnesin rekordlar kitabının ön səhifəsinə düşsün. Halbuki, buna çoxdan nail olublar,- sadəcə, veclərinə almırlar.



Burada haşiyə çıxıb, sizləri kiçik bir sənədlə tanış etməliyəm.

Şəhərin siçovul və siçanları yerli və beynəlxalq humanitar təşkilatlara, cəmiyyət, şura və birliklərə şikayət ərizəsilə müraciət ünvanlayıblar. Müraciətin əsas hissəsini, nöqtə-vergülünə və üslubuna dəymədən, nəzər-diqqətinizə çatdırıram:

«SOS! SOS!! SOS!!!

Tarix boyu bizim əbədi düşmənlərimiz - yiyəsiz pişiklər, sümsüy itlər, axmaq qarışqalar, sırtıq kərtənkələlər, əbədi yaşayış məskənimiz, dolanışıq və qida mənbəyimiz isə şəhər (kənd, qəsəbə və s.) zibilxanaları olub. Biz bu acı faktı indiyəcən taleyin zəruri və şıltaq bir oyunu kimi qəbul edib, barışmağa məhkum olmuşuq.

Ancaq son illər bizlərin dolanışıq mənbəyinə - əziz və doğma zibilliklərimizə qarşı əsl təcavüz aktları baş verməkdədir. Təcavüz! İnsanlar tərəfindən - əsasən, sosial mənşəyindən, ziyalılara, daha doğrusu, keçmiş savadlı adamlara bənzəyən BƏNİ-İNSANLAR tərəfindən.

Qərəzsiz, vicdanlı, obyektiv və dəqiq yanaşsaq, bəyan etməliyik ki, ancaq bizə, - biz siçovul və siçanlara məxsus olan zibil tullantılarına ac-yalavac ikiayaqlılar şərik çıxıblar, - heç bir razılaşma, şərt, protokol, yaxud rəsmi müqavilə olmadan! Əlaqədar təşkilatlar isə ağızlarına su alıb hələ də susur.(???) Buna nə ad vermək olar?! Əlbəttə ki, laqeydlik, dərəbəylik, özbaşınalıq!

İddia edirik: bu sayaq qeyri-humanist münasibətlər sistemi, birbaşa və dolayısı ilə biz gəmiricilərin fundamental hüquq və azadlıqlarına yönəlik kobud müdaxilə sayılmalıdır.

Tələb edirik ki, bu kimi hallara təcili son qoyulsun!

Əminik ki, bütün yazılmış, yazılmamış və nə vaxtsa yazılacaq qanunlara görə, qeyd olunan tələblərimiz haqlı və ədalətlidir.

Biz, sadə gəmiricilər olaraq, həyatımızın, ərazi bütövlüyümüzün, eləcə də gələcək müqəddəratımızın ciddi təhlükə altında olmasından çox nigaranıq. Və məhz bu səbəbdən də bu müraciəti yazmalıydıq. Yazdıq da!.»

Əlqərəz, davam edək... iqtidarın taktikasından danışırdıq.

...İqtidar müdirləri öz "parlaq" əməl və niyyətlərini hansı fəndgirliklə həyata keçirir?..

Nə fel eləyir, nə həngamə çıxarırlar ki, fağır-füqəra camaat öz qarnından savayı özgə bir şey düşünməyə macal tapmır?.. Öz işlərini necə məharətlə qurub-qoşurlar ki, əhalinin təbii yaşam instinkti fırlanıb sürü instinktinə çevrilir?..

Görünən "kənd" budur ki, onların əsas məqsədi külli-camaatın canına "optovoy" şəkildə qorxu hissi hopdurmaqdır...Yəni xofdan-qorxudan hamı sarısını udub, dilini dinməz yerinə qoysun, vəssalam!

Özləri isə, əksinə, əlləri özgə-özgə ölkələrin yüksək-yüksək tribunalarına çatan kimi, müstəqil, demokratik və azad məmləkət yaratdıqları, vətəndaşlarını ağ günə çıxartdıqları barədə məzəli-məzəli monoloqlar söyləyirlər...

Bu yalan-palanları eşidən, görən, bilən məmləkət əhli isə, təbii ki, canı çıxsa belə, cınqırını çıxarmır. Qorxudan. Yazıqlar neynəsinlər axı?..

Müdirlər, cənablar zənn edirlər, hətta əmindirlər ki, belə olduğu təqdirdə, bütün aləm onların nağıllarına qeyd-şərtsiz inanacaq, üstəlik, sürəkli alqışlarla qarşılayacaqlar...

Ölmüşdü Xandadaş!

Daha sonra, bunlar istəyirlər ki, dünənki xeyirxahları - bədxah, bugünkü bədxahları isə - xeyirxah obrazında təqdim eləyib, gözübağlıcılıqda Hoperfildə fora versinlər...Düzdü, bətnində altıaylıq uşaq gəzdirən qadını bakirə qız kimi təqdim eləmək bir qədər də asan məsələ deyil, amma Olimpdən dığırlanıb yıxılmamaqçün hərdən belə xırda-mırda şeyləri malalamaq lazım gəlir...

Bunlar daha nə istəyir və istədiklərini çəkinmədən, necə gerçəkləşdirə bilirlər?

Və daha hansı-hansı məsələlərdə fərqlənib, Ginnesin kitabına düşmək arzusundadılar?

Buyurun:

-qanunlar qəbul edib, onun icrasından yayınmaqda;

-qanunları qaydalarla əvəz etməkdə;

-«şapka» və çeşidli korrupsiya əməllərilə yerli və əcnəbi sərmayəçiləri, şirkətləri, eləcə də digər iş adamlarını bezdirib ölkədən didərgin salmaqda;

-elə həmin «şapka» dalınca qaça-qaça öz papaqlarını da salıb itirən «təpəgöz» dövlət məmurlarının çoxluğunda;

-saysız-hesabsız absurd cərimələr tətbiq edib məzlum camaatı cəhənnəm əzabına düçar etməkdə;

-dinin siyasətə baş vurmasında, o cümlədən siyasətin dinsiz olmasında;

-gündəlik tələbat mallarının mətastaz verən qiymətlərini gicitkana çevirmək bacarığında;



-Nəsimini diri-diri soyanların belə həsəd apardığı, vergi, gömrük, qaz və enerji nəzarəti işçilərinin analoqu olmayan manipulyasiyasında;

-nahaqqı haqqa yükləməkdə;

-AzTV və onun doğma övladları olan digər balaca-balaca tv-lərin, həmçinin bir neçə «ölü doğan» qəzetlərin və ölü kimi danışan bəzi "bilici" ekspert-politoloq-sosioloqların vasitəsilə camaata "üçdük" gəlməkdə;

-sözləri ilə əməllərinin üst-üstə düşməməsində - yəni iki ölçüdə yaşamaq istedadında;

-gecələr işıqları, soyuqlarda qazı söndürüb, insan həyatını məşəqqətə çevirmək hiyləgərliyində;

-adambaşına düşən, eləcə də tək bir adamın təhlükəsizlik və əmin-amanlığını qoruyan polis işçilərinin sayını fantastik həddə çatdırmaq ustalığında;

-tutduğu məsul vəzifələrlə intellektual səviyyələri tərs mütənasiblik təşkil edən, bir regiondan çıxmış şəxslərin təpəgözlüyündə;

-ziyalıların «ziya»sını alıb, qalan «lar» şəkilçisini LƏL əvəzinə toplamaq hərisliyində;

-məmləkətin xəlvət dərələri üstünə pərdələr çəkib, tülkünü BƏY eləmək canfəşanlığında;

-işıq gələn bütün dəlmə-deşiklərə pambıq tıxamaq məharətində...

Və sair və ilaxır...

Gələcəkdə həmin o məşhur kitabın səhifələrində gözəgəlimli yer tutmaq üçün siyasi, iqtisadi, sosial və bir çox digər sahələrdə də, məqsədyönlü, səmərəli, habelə, analoqu olmayan misilsiz işlər aparılır. Hətta, ən axırıncısı olmaqda belə, birinci olmaq hobbisi aşkarca görünür. Hələ, mənəviyyatımızı, əxlaqımız və gün-güzəranımızı göy əskiyə bükən, evdə-eşikdə, çöldə-bacada bütün söhbətlərin «mübtədası»na dönmüş, - intəhasız rüşvətxorluq, vahid zümrənin ağalığı kimi xırda-para tragikomik «dədəm vay, nənəm vay»ları hesaba almıram... Yəni deyilə-deyilə boş səsə çevrilən bu sözləri - çevir tatı, vur tatı - təkrarlamağa nə hacət?..

İlahi, bu ciyəriyanmış Ginnesin kitabı nə matah şeymiş belə?! Bu nonsens deyilsə, onda mən də Trampın xalası nəvəsinin uzaq qonşusuyam... Bütün bunlar, yəni hamımızın görüb-bildiyi onlarla rekordfason işteklər bugünkü iqtidarımızın üzdə olan TAKTİKASIDIR. Və nə yazıq ki, bunlar gün kimi apaydın məsələlərdir. Ancaq mən, nə qədər düşünsəm də, vətənimizin "tərəqqisi" naminə dəridən-qabıqdan çıxan iqtidarımızın strategiyasını anlamıram, anlaya bilmirəm. İstəsəm də, cəhd də eləsəm - ağlım bir şey kəsmir ki, kəsmir. Özümçün götür-qoy edirəm ki, görəsən, bütün bu gedişlə və bu gərdişlə mənim iqtidarım haracan gedib çıxacaq, ya gedib-gedib hara düşəcək?! Və bu, heç şübhəsiz ki, qapqara qaranlıq, hətta, qaranlıq otaqdakı qara pişiyin qara quyruğundan da qara bir məsələdir. Ki, adam az qalır çığıra-çığıra desin:

- DAHA BU AĞ OLDU!!!

Bu qədər. Görürsüz, deməli, mən də özümə görə nəyisə bilirəm. Həm də bilirəm ki, bilirəm. Çünki necə deyərlər, mən bir o qədər səfeh və cahil deyiləm ki, bu əndirabadi zamanda ağrımayan başıma yaylıq bağlayıb siyasətlə məşğul olam; amma bir o qədər qoca və daşürəkli də deyiləm ki, ətrafda baş verənlərə heykəl laqeydliyilə baxıb, heç nəyi vecimə almayım...

Bəli, mən öz sözümü dedim. İndi mənə «hətərən-pətərən» deyənlər qoy oturub özləri «çorta» getsinlər və bala-bala saf-çürük eləsinlər ki, görən, bayaqdan bunun dediyi bu hətərən-pətərən sözlər nəydi belə?.. Və görən, bunları deyən adamın özünün TAKTİKASI nədir, STRATEGİYASI nəmənədir?..

Vəssalam. Belə-belə işlər, qırılsın keşişlər!

**Eldəniz QULİYEV**

***P.S. Hə, o ki qaldı müxalifətlə iqtidarın güləşməsinə...***
***...təki yıxılan xalq olmasın!..***

Ölkəmizi təkrar olaraq 1920-ci ildə işğal etmiş, bağımsız cümhuriyyətimizi susdurmuş Rusiya bolşeviklər imperiyası özünün hər cür təbliğatıyla bizim türk olmadığımızı, əslində, Türk aləminin bizə "düşmən olduğu"nu sübutlamağa çalışırdı. Özəllikcə, Anadolu türklərilə bizlərin heç bir ilişgimizin "olmadığı"nı sübutlamağa cəhd edirdi. Bunun üçün çoxsaylı variantlardan yararlanırdı.

*(Əvvəli ötən saylarımızda)*



# Əzəmətli ölkə, möhtəşəm diyar - doğma, əziz Türkiyə

### Amazon Köyü

Trabzonda Atatürk Köyü, Uzungöl, Sera Gölü, Çal Mağarası və s. ilə yanaşı, Türkiyəyə şöhrət gətirən gəzməli, görməli yerlər sırasında Samsunun da özəl yeri var. Samsundakı gəzməli, görməli yerlər insanda bu günə, tarixə, gələcəyə səyahət ovqatı yaradır. Avqustun 18-də Samsunda yer alan Amazon Köyünə getdik. Samsunda Amazonlar, Amazon Köyü insanı əski tarixə səyahət etdirir. Samsunun Amazonların yaşamış olduqları guşəsi də çox yaddaqalan, olduqca görümlü yerlərdən idi. Tarixdən Amazonların döyüşkən qadınlar qəbiləsi olduğu yaddaşlarımızda qalıb. Amazon Köyünün adı savaşçı Qadın Toplumu olan Amazonlardan götürülmüşdür. Deyilənə görə, "Amazon" adı kamandan ox atmağın asan olması üçün qızların sağ döşlərinin yandırılması adətindən meydana gəlib. Amazonlar bütün vaxtlarını döyüşlərdə keçirir, ox-kaman, döyüş baltası, yüngül qalxanlarla yaraqlanır, özlərinə də dəbilqə və paltarlar düzəldirmişlər. Amazonlar öz nəsillərini davam etdirməyi qonşu tayfaların erkəkləri ilə yerinə yetirirmişlər. Doğulan oğlan uşaqlarını ya öldürür, ya da atalarına verir, qızları isə özlərinə götürərmüşlər.

Samsun bölgəsinin Amazon qadınlarının yaşadığı bölgə olduğu tarixdən bilinir. Arxeoloqlar və tarixçilər araşdırmalar sonucunda Amazonların miladdan öncə 300-cü illərdə Tərmə Çayı sahmanında, Amisos Təpəsinin ətəyindəki zolaqda Thəmiskyra adlı kənddə (Amazon Köyündə) yaşadıqlarını isbat etmişlər. Belə bir halda, demək, Amazonlar Samsunda yaşayıblar, onda Türkiyə, türk xalqı onlara sahib çıxıb.

2010-cu ildə Batı Parkda yapılan Amazon adası kanal vasitəsilə Qara Dənizdən ayrılmış ayrıca bir adadır. Körpülər yardımıyla keçilə bilən adada eynı zamanda Amazon kanalı, qayırma dayanacaq, balıq restoranları və əyləncə yerləri var. Onunçün böyük bir Amazon Qadın Heykəlini, onun çevrə düzənləməsini yapmışlar. Heykəlin hündürlüyü 15 metrə, eni 4 metrə, ağırlığı isə 6 tona yaxındır. Bu heykəlləri 10 nəfər Ankaralı və Samsunlu heykəltaraşlar 5 aylıq bir çalışma süresinə başa gətirmişlər. Amazon Adasında yerləşən Amazon Heykəlinin biri sağında, o biri solunda olmaqla "Anadolu Aslanları" adlandırılan iki heykəl yapılmışdır. Aslan heykəllərinin içindən nərdivanla onun təpəsinə qalxmaq mümkündür.

Samsun bir çox nöqtələrindən görünə bilən Amazon qadını və "Anadolu Aslanı" heykəllərilə tanınır. Samsun Böyükşəhər Bələdiyəsi ilə On Doqquz May Üniversiteti tərəfdən yaradılan Köy Samsuna gələn turistlərin ən başlıca ziyarət yeridir. Hər kəsdə yaranan təəssüratlar buradakı işlərin hələlik bitmədiyini göstərir və burada gələcəkdə daha möhtəşəm, daha çox işlər yerinə yetiriləcəyindən soraq verir. Görünür, hələ Amazonların həyatları ilə bağlı ayrı-ayrı heykəllər qoyulmalı, daha möhtəşəm relyeflər yaradılmalı olacaq.

Tarixin ortaya çıxardığı faktlara görə, Amazonların məskun olduğu əsl yer Orta Asiya olmuşdur. Orta Asiyalılar özləri də soy olarak Türkdürlər və tarixdə İskitlerin qalıqları kimi tanınırlar.

Amazonlar sadəcə qadın savaşçı bir topluqlardır və onlar tarixə də savaşçı sifətiylə düşmüşlər. Bu savaşçılar yaşadıqları dönəmin bütün savaş alətlərini inanılmaz bir başarıyla işlətmiş, bir yığın kişi ordu ilə üzbə-üz, qarşı-qarşıya döyüşmüşlər.

### Türkiyədə ərəblər

Türkiyədə ərəb turistlərin çox olduğu barədə yuxarıda söz açmışdıq. Trabzon şəhərində və onun əyalətlərində, gəzməli-görməli yerlərində haraya gedirsən, dəstə-dəstə ərəbləri görürsən. Dükana gedirsən - ərəblər, gəzimli yerlərə gedirsən - ərəblər, çay evinə gedirsən - ərəblər, muzeyə gedirsən - ərəblər. Təbii, ərəblərin böyük çoxluğu Türkiyəyə elə-belə gəlmirlər, turist sifətilə gəlirlər. Onlar birgə, dəstə ilə gəzirlər. Hər yerdə Türkiyə qayda-qanunlarına, Türkiyədə mövcud nizam-intizama sayqılı olurlar. Daha doğrusu, onlar Türkiyənin iç qanunlarına, türk xalqının gələnək-görənəklərinə yetərincə sayqı ilə yanaşırlar və əməl edirlər. Öz yetənəklərini də saxlayırlar. Qadınları örtüklə gəzirlər. Türkiyəlilər də buna öyrəşmişlər. Heç kim hicablı, yalnız gözləri görünən qadınlara təəccüblənmir. Kişilər isə, geyimlərində türkiyəlilərdən heç nə ilə fərqlənmirlər. Ərəb turistlər demək olar, Türkiyənin turist və alqı-satqı planını ödəyirlər. Özlərini sakit, tərbiyəli aparırlar. Acgöz, "görməmiş" deyillər. Hər yanda iki-iki, üç-üç... gəzirlər.

### Türkiyə Böyükşəhər Bələdiyələri

Türkiyə şəhərində mədəniyyət, istirahət, təmizlik, şəhər nəqliyyatı, şəhər təəssərrüfatı və bu sıradan olan bir çox işlərə bələdiyələr baxır. Onlar yerinə yetirdikləri işlərin, çözdükləri problemlərin üstünə öz adlarını (Böyükşəhər Bələdiyəsi) yazırlar. Bu baxımdan, bələdiyənin işinin yaxşısı da, yavası da göz qabağında olur. Gördükləri işlərin məsuliyyətini də özləri daşıyırlar. Bələdiyə bölümləri bir-biri ilə elə bil yarışa girirlər. Baxırsan, hər yer səliqə-sahmanlı, hər şey öz yerində. Marketlərdə, dükanlarda, restoranlarda, kafelərdə, çay evlərində, bir sözlə, toplumluqlarda ilgili olan hər yerdə "Siqara içilməz" bildirisi yazılır. Buna hamı bir nəfər kimi riayət edir. Restoranlarda, kafelərdə, özəllikcə toplumla ilgili olan bütün yerlərdə spirtli içki içən yoxdur. Heç bir marketdə, dükanda spirtli içki satıldığının şahidi olmadıq. Heç yerdə cinayət törətməyə yön verən əlavə səbəb yaradıcısı demək olar, diqqətə çarpmırdı. Marketlər, mağazalar, dükanlar, bazarlar gərəkən mallarla dolu idi. Şəhərin aparıcı işlərinin yerinə yetirilməsi ancaq bələdiyələrin işinə aid idi.

Türkiyə Cümhuriyətində Bələdiyə sayılıb-seçilən örgütlərdəndir. Türkiyə Bələdiyəsi dövlətçün həm də kadr hazırlayan bir orqan görəvi daşıyır. Zaman-zaman Bələdiyə başarılısı Dövlət hakimiyyətində mühüm görəv tutur. Məsələn, Türkiyə Cümhuriyətinin indiki prezidenti cənab Rəcəb Tayyıb Ərdoğan da Bələdiyə Başkanlığından gəlib prezident olmuşdur.




### Nizam-intizam ölkəsi - Türkiyə

Türkiyəyə bir turist gözüylə baxdıqda Trabzon və Samsunun timsalında nizam-intizama, qaydaqanuna yetərincə riayət olunduğu, hər şeyin öz yerində olduğu diqqətçəkən bir haldır. Türkiyənin sənayesi, kənd təsərrüfatı gərəkən səviyyədə inkişaf edib və inkişaf etməkdədir. Bu işdə sözsüz, dövlət yönəticiliyi ən başlıca, ən mühüm rol oynayır. Hər şey öz yerində qoyulub. Müşahidələrimizdən, insanlarla olan söhbətlərdən gəldiyimiz sonuca görə, görəvlərə təyinatda qohumçuluq, tayfaçılıq, yerliçilik heç bir rol oynamır. Söhbətləşdiyimiz şəxslərdə bu yöndə ciddi bir narazılığa tuş gəlmədik. Hər kəsin işi-gücü vardı, hər kəs öz işindəgücündə idi. Bircə şəxs bütün dünyanın düşmən edildiyindən gileyləndi, onu bir qədər danışdırdım. O, öz fikrini aydınlaşdırdı, gördüm, Vətənini, millətini ürəkdən sevən adamdır, dedikləri səmimidir. Dedikləri prezidentin dış siyasətinə aid idi. Deyirdi, Türkiyə devlətinin başçısı Rəcəb Tayyıb Ərdoğan bütün dünyanı bizimlə düşmən eləyib... Bu fikri Bakıda işlədənlər də var. Ancaq bu dedikləri haqda mənim Bakıda olanda da öz şəxsi fikirlərim vardı, Trabzonda olanda da. Bu fikir ondan ibarətdir, cənab Rəcəb Təyyub Ərdoğanın ən çox xoşuma gələn işi elə həmin məsələdir. Qarşımdakı söhbətçimə dedim, yox, cənab Ərdoğan sizi dünya ilə düşmən etmədi, sizə, əslində, türk və İslam dünyasına düşmənlərini tanıtdı ki, bunların əməllərinə bir baxın, görün, bunlar sizlərdən nə istəyir! Terror örgütləri yaradıb, sizin, türkiyə xalqının üstünə düşüblər, Türkiyəni zəifltmək, dağıtmaq, türk xalqını məhv etmək istəyirlər. Bilirlər, dünya türklərinin canı burada - Türkiyədədir. Bilirlər, Türkiyəni məhv etsələr, dünya türklərini çətinlik çəkmədən məhv edə bilərlər. Türkiyənin bugünkü möhtəşəm gəlişmələri onlarda qorxu duyumu yaradır. Onu da bilirlər, bütün İslam aləminin, bütün dünyanın umudu Türkiyədir. Türkiyə məhv edilsə, İslam aləminin məhv edilməsi üçün əngəllərə rast gəlməzlər. Neçə onillərdir, Türkiyənin Avropa Birliyinə üyə olmasını əngəlləyirlər. Nədəni nədən ibarətdir? Cənab Rəcəb Tayyıb Ərdoğan bütün bunları görür və bütünlükcə türklərə və müsəlmanlara onların düşmənlərinin kim olduğunu anladır. Başqa cür desək, o, dünyanı Türkiyəyə düşmən eləmir, fəqət Türkiyəyə öz düşmənlərini tanıdır.

Türkiyə və bütünlükcə İslam aləmi üçün bundan dəyərli, bundan önəmli nə ola bilər? Bizim qənaətimizcə, cənab Rəcəb Tayyıb Ərdoğan Türkiyənin Qazi Mustafa Kamal Atatürkdən sonra ən qüdrətli dövlət öndəridir. İndi ərəb ölkələri onların var-yoxlarını zaman-zaman talayanları, özlərinə qarşı terrorlar törədənləri, öz başçılarını (Səddam Hüseyin, Mühəmmər Qəzzafi, Hüsnü Mübarək...) təhqiredici şəkildə öldürənləri və öldürmək istəyənləri, onları başsız qoyanları və qoymaq istəyənləri yaxşı tanıyır, Türkiyənin onlara arxa durduğunu görür, onu özünün başbiləni, ağsaqqalı sayır. Bütün bunlar Türkiyə Cümhuriyəti cənab Rəcəb Tayyıb Ərdoğanın sayəsində baş verib. Onlar indi bütün dünya müsəlmanlarına münasibətdə Türkiyəni, onun mövqeyini mütləq nəzərə almalı olurlar.

*(Ardı var)*

**Bəhmən SULTANLI**

Cəmiyyətdə ilk bankların yaranması bir çox insanların, ilk növbədə isə sahibkarlıqla məşğul olanların və sahibkarlıqla məşğul olmaq istəyib, lakin bunun üçün maliyyə vəsaitinin olmaması və ya bu iş prosesinin başa çatması üçün yetərli olmaması zərurətindən meydana gəlib. Borc adlanan iqtisadi kateqoriya bəşər övladının insan olaraq şüurlu həyat sürməsinin hələ ilkin mərhələlərindən belə, mövcud olmuşdur. Bu borclar ilkin mərhələlərdə əmək alətləri, ərzaq, paltar və s. kimi natural formada, həm də borcun alındığı miqdar, dəyər və digər ölçülərdə qaytarılması şərti ilə verilib.

*(Əvvəli ötən saylarımızda)*



# Banklar sahibkarları necə qarət edir?

*“Bütün kəşflər zərurətdən yaranır”*

Fridrix Engels

Hər bir cəmiyyətdə mövcud olan banklar öz iqtisadi, inzibati fəaliyyətini ilk növbədə mövcud olduğu dövlətin quruluşunun məzmun və mahiyyətinə uyğunlaşdırmaq zorundadır. Əks halda, onun fəaliyyət göstərməsi heç bir halda mümkün deyil.

Ölkədə bütün qanunlar səthi, dekorativ məzmuna malikdir, bu da ondan irəli gəlir ki, Konstitusiyanın özündən başlayaraq, hakimiyyət qanuna deyil, məmura verildiyi üçün reallıqda hər bir sahədə gedən proseslərin yüzlərcə fərqli məzmunu çalarları var. Qanunun konkret məzmunu və çalarlarının ümumi və səthi yazılmış hansı hissəsinə tövsif edilməsi və hansı qərarın qəbul edilməsi, tale olaraq hakimiyyətə malik olan məmurun ümidinə qalır.

Bankların yaradılması, mövcudluğunu təmin etməli olan dövlət qurumları ilə qarşılıqlı münasibətlərin tənzimlənməsində qanunun necə tətbiq edilib-edilməməsini məmurun iradəsinin ümidinə qoyan məqamları bir kənara qoyduqda belə, bank ilə müştəri arasındakı müxtəlif məzmunlu, çalarlı münasibətlərin tənzimlənməsində də çoxsaylı boşluqların olması, konkretliyin olmaması da müştərilərin çoxlu sayda anormallıqlarla rastlaşmasına səbəb olur.

Kənd təsərrüfatı sahələri üçün banklardan verilən kreditlərin ödənilməsi sahəsindəki qaydalardakı şüarbazlıq aradan qaldırılmadıqca kənd təsərrüfatının müxtəlif sahələrinin kreditləşdirilməsindəki, bu sahələrin xüsusiyyətlərindəki əhəmiyyətli fərqlər üzündən yaranan anormallıqları aradan qaldırmaq mümkün olmayacaq.

Ölkədə kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olan orta və kiçik sahibkarların ən çox məşğul olduğu sahələr heyvandarlığın iribuynuzlu, kiçikbuynuzlu heyvanların və quşçuluğun ayrı-ayrı quş növləridir.

Bitkiçilik sahəsində isə müxtəlif meyvə növləri və bostan-tərəvəz məhsullarının yetişdirilməsidir. Son vaxtlar isə bunlara nohur balıqçılığı vasitəsilə xırda növlü balıqların yetişdirilməsi də əlavə olunmuşdur.

Kənd təsərrüfatının sadaladığım bu sahələrinin hər bir istiqamətində də istehsal prosesinin bilavasitə başlanğıcına sərmayə qoyuluşundan başlayaraq, məhsulun istehsal edilib, əmtəə halına gətirilməsi və bazarda satılaraq pula çevrilməsinin, hər bir sahədə özünəməxsus xüsusiyyətləri, texnoloji vaxt standartları mövcuddur. Bankların kredit verilməsi qaydalarında bu xüsusiyyətlər nəzərə alınmaqla, ayrı-ayrı kənd təsərrüfatı sahələri və onların istiqamətləri üzrə, nə verilən kreditlərin verilmə müddətləri, nə də onların qaytarılması qaydalarını müəyyən edən heç bir normativ mövcud deyil. Bu məsələlər bank məmurlarının istəyi və iradəsinə uyğun həll edildiyi




üçün, istənilən əməliyyatda sahibkarlara qarşı edilən ədalətsizliklər baş alıb gedir.

Yazının əvvəlində qeyd etdiyim bank krediti həm sahibkarın, həm də ona zamin duran şəxsin daşınmaz əmlakı ilə sığortalanmışdır. Üstəlik, bank sığorta və hesab açmaq adı ilə vətəndaşdan 1000 AZN pulu ona heç bir sənəd vermədən almışdır. Kredit alan müqavilə şərtlərini polzarsa və yaxud krediti vaxtında ödəməzsə, bank məhkəməyə müraciət edərək məhkəmənin qərarı ilə onun, zaminin girov qoyduğu və ya onlara məxsus olan hər hansı daşınmaz və ya daşınan əmlakını, mülkiyyətini satdıraraq pulunu geriyə ala bilər.

Bankın müştəridən sığorta adı ilə sənədsiz aldığı məbləğ əslində onun vətəndaşa qarşı edilən maliyyə cinayətidir.

Bankın vətəndaşa qarşı etdiyi ikinci cinayət budur ki, vətəndaş 2,5 il müddətinə aldığı borcun əsas hissəsini 6 aydan sonra ondan əsas borcun ödənilməsi adı ilə hər ay 833 AZN olmaqla vətəndaşdan geriyə alınması, əslində sahibkarın iki il ərzində hər ay iki il yarım onun mülkiyyətində olub, bu məbləğdən özünün istehsal, təsərrüfat məqsədləri üçün istifadə etmək imkanından məhrum edilməsi ilə bərabər, bankın vətəndaşı hər ay 833 AZN miqdarında qarət etməsidir. Belə ki, 2,5 il müddətində ona məxsus olan məbləğin hər hansı bir hissəsinin vətəndaşın əlindən alınması, bankın hələ müqavilə bağlanarkən vətəndaşı qarət etməsi aktını rəsmiləşdirməkdən başqa heç nə deyil.

Digər bir önəmli məsələ isə budur ki, vətəndaşın aldığı krediti müqavilədə nəzərdə tutulduğu 2,5 il əvəzinə, 6 aydan sonra, yəni əsas məbləği 20 000 (iyirmi min) AZN olmaqla, 6 aylıq faizi ilə birlikdə ödədiyi halda belə, müqavilədə əsas məbləğ üçün nəzərdə tutulan 2 (iki) illik faiz məbləği də banka ona icbari olaraq ödətdirmiş olur. Bu isə o deməkdir ki, vətəndaşın iki il ərzində banka olmayan 20 000 AZN borca görə faiz adı ilə ondan 8 640 AZN almaqla, bağlanmış müqaviləyə əsaslanaraq, onu bu məbləğdə qarət etmiş olur.

Ölkədə mövcud rejimin quldarlıq quruluşu olduğunu nəzərə aldıqda, dövlət quldarlığı quruluşunun mövcud fonunda, bankın vətəndaşdan qeyri-rəsmi aldığı 1000 AZN məbləği bir kənara qoysaq belə, onun quldurluqdan başqa heç bir ad verməyin mümkün olmadığı, hər ay 833 AZN məbləği 2,5 il tamam olmadığı halda, ondan bu müddətdən qabaq alması və bundan başqa müqavilə vaxtından iki il qabaq qaytarılmış, yəni vətəndaşın banka olmayan borcuna görə vətəndaşdan 8640 AZN pul alması bankın vətəndaşa qarşı etdiyi rəsmi, leqal quldurluq əməli olduğundan başqa heç bir anlama gəlmir.

Dövlət qurumları və hökumət təşkilatlarının vətəndaşlara qarşı yeritdiyi siyasətin və nümayiş etdirdiyi münasibətin banklardan geri qalmayıb, xeyli ötə olduğu şəraitdə, nəinki kənd təsərrüfatında, həyatımızın heç bir sahəsində inkişafa ümid belə etmək mümkün deyil.

Bankların vətəndaşlara normal şərtlərlə kredit verərək, həm özlərinin pul qazanması, həm də kənd təsərrüfatı, sənaye, ticarət və s. sahələrə verilən kreditlərin şərtlərində həmin sahə və onların müxtəlif istiqamətlərinin konkret şərait və xüsusiyyətlərinin nəzərə alınmasını təmin etmək üçün ölkənin təcrübəli kənd təsərrüfatı mütəxəssisləri, hər bir digər sahənin mütəxəssislərinin, bank işçilərinin, hüquqşünasların birlikdə normal kredit qaydaları hazırlanaraq tətbiq edilməlidir. Mən 32 ildən bəri ölkənin sayı-hesabı bilinməyən böyük bəlaların dənizlə müqayisədə 1 damla olan əcaibliyini dilə gətirib, ona əlac etməyin yolunu göstərdim. Lakin nə son parlament seçkilərində, nə parlamentin mövcud funksiyalarında, nə də şəxsi heyətində heç bir keyfiyyət dəyişikliyinin olmaması, bankların fəaliyyətində, həm də bütün başqa sahələrdə də, o cümlədən mənim yuxarıda göstərdiyim ədalətsizliklərin aradan qaldırması sahəsində də “oyunun qaydalarının dəyişməyəcəyinə” görə hər hansı bir tədbir görüləcəyinə də heç bir ümid yoxdur. Mən sadəcə olaraq dövlətin quruluşu baxımından əhəmiyyətsiz, vətəndaş üçün çox önəmli bir nöqsanı ictimaiyyətin nəzərinə çatdırdım.

**Şapur QASİMİ**

Kənd təsərrüfatının sadaladığım bu sahələrinin hər bir istiqamətində də istehsal prosesinin bilavasitə başlanğıcına sərmayə qoyuluşundan başlayaraq, məhsulun istehsal edilib, əmtəə halına gətirilməsi və bazarda satılaraq pula çevrilməsinin, hər bir sahədə özünəməxsus xüsusiyyətləri, texnoloji vaxt standartları mövcuddur. Bankların kredit verilməsi qaydalarında bu xüsusiyyətlər nəzərə alınmaqla, ayrı-ayrı kənd təsərrüfatı sahələri və onların istiqamətləri üzrə, nə verilən kreditlərin verilmə müddətləri, nə də onların qaytarılması qaydalarını müəyyən edən heç bir normativ mövcud deyil...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

# Sosial medianın gənclərin psixikasına təsiri

## Həkim-psixiatr Abdulla Şıxlinski: "Sosial mediada olan bəzi məlumatlar məhz insanların psixikasında müəyyən dəyişiklik etmək üçündur"

**Günümüzdə demək olar ki, sosial şəbəkədən istifadə etməyən insan yoxdur. Azyaşlı uşaqlardan tutmuş, orta və yaşlı nəslin nümayəndələrinədək, demək olar, hər kəs sosial şəbəkədən istifadə edir. Şübhəsiz, bunun müsbət tərəfləri olsa da, mənfi tərəfləri də az deyil. Məsələn, əvvəllər həyatımız sanki daha maraqlı, qohum-əqrabalarla, qoşu və tanışlarla münasibət daha sıx idi. Hazırda isə bütün yaxınlarımızdan uzaq düşmüşük, sosial şəbəkələr bizə yaxınlarımızdan "daha yaxın" olub. Bundan narazı olanlar da ancaq yaşlı nəsillərdir, çünki onlar dərk edirlər ki, gənc nəsil getdikcə həyatdan uzaqlaşıb, bir qaranlığın içinə qarışır. Əlbəttə, deyə bilmərik ki, gənclərin hamısı vaxtını boş-boş platformalarda keçirir, bəziləri bundan öyrənmək, inkişaf məqsədilə də istifadə edir.**



Sosial media istifadəsi gündəlik fəaliyyətimizin bir hissəsidir. Ondan istifadə etməyin və etməməyin faydaları son illərdə müzakirə olunur. Sosial mediada nə qədər çox hesab izləyiriksə, bir o qədər də oradan ayrıla bilmirik. İnsan hər bir şeyə öyrəşir və istənilən təzə nəsnə bir müddət sonra adiləşir. İnsan bu adiləşmədən sıxılır və nəticədə bu sıxıntını aradan qaldırmaq üçün yenilik, yeni nəsnə axtarışına çıxır. Sosial şəbəkələr daim və hər an yeni məlumatlar ötürdüyü üçün insanın bu tələbatını, yəni "yeniliyə ehtiyacını" ödəyir.

Əlbəttə, sosial platformalarda pis-yaxşı öyrəndiklərimiz çoxdur. Demək olar ki, sosial şəbəkələr real həyatın aynasıdır. Real həyatda necə davranırıqsa, virtual məkanda da eləyik. Təbii ki, yüksək əxlaqı, təhsili olan şəxs harada olursaolsun öz davranışına və hərəkətinə nəzarət etməyi bacarır...

Şübhəsiz, hər bir ölkədə insanların sosial şəbəkədən istifadəsi fərqlidir. Məsələn, Azərbaycanda son vaxtlar əksər insanlar ancaq şəxsi həyatları ilə reytinq yığmağa çalışır, paylaşımlar da məhz bu istiqamətdə olur. Təəssüflə qeyd edirik ki, əxlaqı düzgün olmayan insanları izləyib, onlara bahalı hədiyyələr atan iş adamları və yaxud adi insanlar da az deyil. Beləliklə, hədiyyə atan insanlar da hədiyyə yığan şəxsiyyət yoxsulları ilə yanaşı, sosial şəbəkələri "bəzəyirlər". Hansı ki, bunlar zamanla asılı insanlara çevrilirlər.



Təbii ki, hansısa bir şəxs sosial şəbəkədən biznes, reklam, maarifləndirmə və s. məqsədlər üçün istifadə edirsə, bu platformalar onun həyatında sadəcə gündəlik bir planlamaya, yaxud da gündəlik edə biləcəyi bir tapşırığa, işə çevrilə bilər. Bu halda, onların sosial şəbəkə asılısına çevrilməsi mümkün deyil. Asılılıq sadəcə o insanlarda və o hallarda yaranır ki, həmin insanların gündəlik heç bir məşğuliyyəti olmur və ətraflarında elə bir kütlə yoxdur ki, onlarla dostluq etsinlər, düzgün, daha maraqlı zaman keçirsinlər. Bu halda həmin şəxslər məcbur qalırlar ki, zamanlarını sosial şəbəkələrdə keçirsinlər. Əsasən də "TikTok"da. Bu da bir müddət sonra onlarda asılılıq yaradır. Çünki onlar sosial şəbəkə olmadan "yaşaya bilmirlər".

Əlbəttə, sosial şəbəkələrdə "oturmaq" insanın zamanını daha ciddi və daha önəmli işlərə sərf etməsinə əngəldir. Öyrənmək üçün daha çox fürsət olsa da, təəssüf ki, bu platformalarda lazımsız videolar daha çox izlənilir. Hətta bəzi hallarda bu videolar gənc nəslin tərbiyəsini də pozur. Məsələn, bu gün "bloger" adı altında əxlaqsızlığı təbliğ edən qızlar heç də az deyil. Belə olduqda, yeniyetmə və gənc qızlar da onların "yaşayışlarını" görür və həmin blogerlər kimi varlı həyat yaşamaq istəyirlər. Beləliklə də, uşaq valideyndən soyuyur və özünü ancaq sosial şəbəkədə tapmağa çalışır.

Günümüzdə hətta yaşlı nəsli belə, özünə cəlb edən sosial platformalar gənclərə nələr etməz?! Elə bir zamanda yaşayırıq ki, insanlar öz hiss və emosiyalarını yalnız internet üzərindən büruzə verə bilirlər. Bu da insanlarda duyğusal, emosional asılılıq yaradır.

Bu və digər məsələlərlə bağlı həkim-psixiatr Abdulla Şıxlinski ilə həmsöhbət olduq. O, hesab edir ki, sosial media insanı psixi xəstəliyə apara bilər: "Bu, birmənalı olaraq sübut olunmuş həqiqətdir. Nəzərə almaq lazımdır ki, sosial media, ən çox da televiziya və radio, ümumiyyətlə bütün kütləvi informasiya vasitələri insan kütləsini nəzarətdə saxlayan bir vasitədir. Məqsəd insanları manipulyasiya etmək, nəzarətdə saxlamaq, yəni, müəyyən qüvvələrin marağına uyğun olaraq, onların davranışını idarə etməkdir. Hazırkı dövrdə sosial medianın, kütləvi informasiya vasitələrinin, ümumiyyətlə bütün əhali kütləsinin qəbul edə biləcəyi informasiya vasitələri, onların verdikləri məlumatlar - bunların hamısı siyasətçilərin, cəmiyyətdə olan müəyyən qrup nüfuzlu şəxslərin, kommersantların, dünyanın idarə olunmasında iştirak edən çox varlı adamların, yəni kapital sahibi olan şəxslərin əlindədir. İnsanlar çox şeyi bilmir. Onlar sosial medianı açır, ordakı materialı oxuyur, çox vaxt başa düşmürlər ki, hətta burda olan material həqiqət də olsa, insanları idarə etmək üçün bir vasitədir.

İnsanlar saytda olan materialı oxuyurlar, bu zaman onların psixi aləmində böyük təlatüm yaranır, beyinləri çoşur və lazım olmayaraqdan, çox güclü distress keçirirlər. Stress normal vəziyyətdir, distress artıq xəstəliyə aparan bir vəziyyətdir.

Sosial media, kütləvi informasiya vasitələri insanlara çatdırılması istənilən informasiyanın yalnız üzdə olan hissəsidir. Bunun görünməyən tərəfi var. Görünməyən tərəfini insanlara göstərmirlər. Görünməyən tərəfini başa düşmək üçün insanın özünün süuru, intellekti çox güclü olmalıdır. İnsan qlobal təfəkkürə malik olmalıdır ki, həmin informasiyanın əks tərəfini o mətnin içərisində tuta bilsin. Təəssüf ki, əhalinin içərisində belə adamlar həddindən artıq azdır. Əksəriyyət elə üzdə olan informasiyanı qavrayır, bu səbəbdən də o insanlarda müəyyən psixi dəyişiklik əmələ gəlir".

Abdulla Şıxlinski hesab edir ki, bütün bunlar dünya qlobal siyasətinin tərkib hissəsidir: "Mən dəfələrlə bildirmişəm ki, dünya "Dib dövləti" tərəfindən idarə olunur. "Dib dövləti" gizlin, pərdəarxası dövlətdir. Onların əsas məqsədi dünyanın əhalisini idarə etməkdir. Əhalini idarə etmək üçün də ən gözəl vasitələrdən biri kütləvi informasiya vasitələri və sosial mediadır. Sosial media və kütləvi informasiya vasitələrində olan bəzi məlumatlar məhz insanların psixikasında müəyyən dəyişiklik etmək üçündur. Bunun başlıca səbəbi ruhi vəziyyətində pozğunluğu olan adamlara nəyisə əmr etmək, onları idarə etmək, onları müəyyən bir istiqamətə yönəltməkdir. Bəzi paylaşımlar həqiqətən də müəyyən insanlarda psixi xəstəliklər yaradır".

Həkim-psixiatr deyir ki, insan şüurunun, insan intellektinin idarə edilməsi dünya qlobal qüvvələrinin əsas məqsədidir: "Onlar bunu bu məqsədlə həyata keçirir. Ümumiyyətlə, kütləni idarə etmək üçün ikinci vasitə reklamdır. Bilirsiniz ki, reklamlar, xüsusən də televiziya reklamları da psixikanı korlamağa gətirib çıxaran bir məsələdir. Bu iki məqsəddən onlar çox güclü istifadə edirlər".

A.Şıxlinski onu da qeyd etdi ki, son vaxtlar gənc nəslin aqressiv olmasında sosial medianın təsiri ilə yanaşı, təhsilin aşağı səviyyədə olması da ciddi tol oynayır: "Bizdə gənc nəsil demək olar ki, kitab oxumur, onlar bütün informasiyanı internetdən əldə edirlər. Kitab oxumayan, təhsili zəif olan insan heç bir zaman verilən informasiyaları düzgün qavraya bilmir. Həmçinin, öz həyatları ilə bağlı bəzi məqamlar da onlara qaranlıq qalır. Bu da ondan irəli gəlir ki, həmin insanların savadları, təhsil səviyyələri çox zəifdir. Bu məsələlər qaranlıq qaldığı üçün də onlar aqressivləşirlər. İnsan nəyisə bilməyəndə, o, həmin məsələyə qarşı aqressiv olur. Bu kimi səbəbdən də gənc nəsil aqressiv olur".

Həkim-psixiatr bu fikirdədir ki, gənc nəslin aqressivləşməsinin bir səbəbi də fanatizmdir: "Fanatizmin müxtəlif növləri var. Bilirsiz ki, indiki dövrdə ideologiya yoxdur. Sovet dönəmində ideologiya var idi. İdeologiyanın olmaması şəraitində gənc nəsil fanatizmə gedir. Hər hansı bir məsələni özünə müqəddəs bir şey kimi seçir, onu fanatizm ruhunda yaşadır, bu da insanlarda güclü aqressiyaya səbəb olur. Əlbəttə, əsas yerdə sosial media, kütləvi informasiya vasitələri durur. Sosial mediada zorakılıq, aqressiya təbliğ olunur və nəticədə gənc nəsil baxır, aqressiya, zorakılıq, anti-sosial meyllərə qarşı onlarda yalançı pozitiv əhvalruhiyyə yaranır. Belə insanlar da aqressiv olurlar. Bu, tamamilə birbiri ilə əlaqəlidir".

**Jalə FAMİLQIZI**

"Hürriyyət"də Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Xüsusilə mühüm işlər üzrə baş müstəntiqi, MTN Akademiyasının keçmiş fakültə rəisi Taryel Əliyevin müsahibəsini dərc etmiödik. Ölkəmizdə və regionda baş verən siyasi proseslərin müzakirəsinə həsr olunan müsahibədə T.Əliyevin səsləndirdiyi bir sıra fikirlər oxucularımızın ciddi marağına səbəb olmuşdu. Lakin mövzu geniş olduğundan bəzi suallar cavabsız qalmışdı. Odur ki, oxucularımızı düşündürən həmin sullara cavab almaq üçün yenidən Taryel Əliyevə müraciət etdik.

# "İsgəndər Həmidov MTN-nin istint

## Taryel Əliyev: "Həmin vaxt MTN-ə və Respublika Prokurorluğuna rəhbərlik edən şəxslərin dişsizliyi səbəbindən, məsələnin həllinə Əbülfəz Elçibəy vasitəsilə nail olmaq istəmişdim"



***- Ötən müsahibəmizdə xarici siyasətlə bağlı bir sıra sualları cavablandırmaqda maraqlı görünmədiniz. Amma bu gün regionda baş verən bəzi siyasi proseslər hələ də cəmiyyətimizə qaranlıq qalır. Məsələn, belə fikirlər var ki, Azərbaycan Qərbdən üz döndərib, tamamilə Rusiyaya meyllənir. Bu haqda Siz nə düşünürsünüz?***

- Hamıya məlum olduğu kimi, Azərbaycan Respublikası balanslaşdırılmış və kifayət qədər uğurlu xarici siyasət həyata keçirir. Şəxsən mən xarici siyasətimizin uğurlarını görürəm və hərtərəfli dəstəkləyirəm. Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyev regionda baş verən bütün prosesləri diqqətlə izləyərək, xarici siyasətdə böyük uğurlara nail olmuşdur. Bildiyimiz kimi, siyasətdə daimi dostluqlar yoxdur, daimi maraqlar var. Azərbaycan Respublikası da öz maraqlarından çıxış edib, xarici siyasətdə lazım gələn addımları atır. Cəmiyyətdə Qərbdən tamamilə üz döndərib, Rusiyaya meyllilik yaranması barədə fikirlər həqiqəti əks etdirmir. Sadəcə, hazırda Azərbaycanda həyata keçirilən COP-29 tədbiri ilə əlaqədar bəzi dövlətlər və siyasətçilər Azərbaycana qarşı qarayaxma kampaniyası aparmağa başlamışdır və növəti dəfə ikili siyasətin şahidi oluruq. O baxımdan, istər dövlət başçısı, istər xarici siyasətlə bilavasitə məşğul olan strukturlar və şəxslər bu məsələlərə lazımi reaksiyalarını bildiriblər. Məlumdur ki, dünya çapında Qərb və ABŞ bir tərəfdə, Rusiya isə digər tərəfdə, öz təsir dairələrini saxlamağa və genişləndirməyə çalışırlar. Azərbaycanın da nə tam Qərbpərəst, nə də tam Rusiyapərəst mövqe tutduğunu söyləmək düzgün deyildir.

Yeri gəlmişkən, COP-29 ən yüksək səviyyədə təşkil olunmuşdur, uğurla həyata keçiriləcəyi və Azərbaycana böyük fayda gətirəcəyi şübhə doğurmur.

***- Demək istəyirsiniz ki, Qərblə münasibətlər tam normaldır?***

- Dəfələrlə deyildiyi kimi, Azərbaycanın Qərblə çox böyük iqtisadi əlaqələri vardır. Qərb insan hüquqlarına, cəmiyyətin demokratik inkişafına böyük dəyər verir. Qərblə münasibətləri normal saxlamaq bizə olduqca vacibdir. Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının xarici siyasəti Prezident və müvafiq dövlət orqanları tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının uğurlu xarici siyasət həyata keçirməsi üçün əlverişli şərait yaratmaq vəzifəsi Azərbaycan Respublikasının Xarici kəşfiyyat xidmətinə məxsusdur. Təbii ki, hansı anda hansı qərarlar verməli və hansı fikirlər bildirmək həmin orqanlar tərəfindən əldə olunmuş məlumatlar əsasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətinə aiddir. Məsələlərə münasibət strateji hədəflərə uyğun olaraq, düzgün taktika ilə bildirilir. Beynəlxalq vəziyyət dinamikdir, tez-tez dəyişir, xarici siyasətdə çeviklik böyük önəm daşıyır. Təkrarçılıq olsa da, bir daha deyilməlidir ki, bütün bu məsələlər uğurla və dəqiqliklə həyata keçirilir. Burda məni narahat edən başqa bir məsələ var. Bir sıra siyasətçilər, politoloqlar, geopolitiklər yerliyersiz Qərb dövlətlərinə qarşı kəskin ifadələr işlədir, çıxışlar edirlər. Hansı ki, bu şəxslərin əksəriyyətinin Qərblə əlaqələri, orada əmlakları var, uşaqları "bəyənmədikləri" Qərbin ali təhsil müəssisələrində oxuyurlar, özləri müalicə və istirahət üçün Qərb ölkələrinə gedirlər, Qərbin geyim əşyaları və brendlərindən istifadə edirlər. Şəxsən mən, xoşa gəlmək üçün yerli-yersiz Qərbi "top atəşinə" tutan bu cür şəxslərin səmimiyyətinə inanmıram.

***- Yəni bu çıxışların bir çoxu Rusiyaya yarınmaq məqsədi daşıyır?***

- Rusiya bizə kifayət qədər tanış ölkədir. Biz 200 ilə yaxın bu imperiyanın müstəmləkəsi olmuşuq. Keçmişdə Rusiyanın bizə yaratdığı problemləri yaşlılardan eşidib, kitablardan oxumuşuq. Müstəqillik yolunda atılan addımlar zamanı və müstəqillik dövründə yaradılmış problemlərin canlı şahidiyik. Biz azad və müstəqil inkişaf etmək istəyirik. Rusiyanın və Qərbin maraqlarının toqquşduğu digər ölkələri, nümunə kimi Şimali və Cənubi Koreyanı misal gətirə bilərik. İnsanların həyat səviyyəsini, iqtisadi inkişafı və bütün digər parametrləri müqayisə etsək, Rusiyanın xeyrinə hər hansı bir arqument gətirmək mümkün deyil. 1950-ci illərdə bir tərəfdə keçmiş SSRİ, yəni faktiki olaraq Rusiya, digər tərəfdə isə ABŞ, Koreya yarımadasında mübarizə aparmışlar. Düzdür, müharibə oldu, insanlar öldü, kifayət qədər humanitar problemlər yaşandı. Nəticədə eyni millətə məxsus 2 ayrı dövlət yarandı - SSRİ-nin təsirində olan Koreya Xalq Demokratik Respublikası və ABŞ-ın təsirində olan Koreya Respublikası. Hazırda Koreya Respublikasındakı həyat səviyyəsi ilə şimaldakı KXDR arasında dərin bir uçurum vardır. Koreya Respublikasının ÜDM-i şimal qonşusundan təxminən 70 dəfə, adambaşına düşən ÜDM isə 35 dəfədən çox artıqdır. "Samsunq", "Hyundai", "Kia" və dünyaca məşhur yüzlərlə digər brendlər bir tərəfdə, aclıq, səfalət, əmək koloniyaları isə digər tərəfdədir.

Rusiyanın təsir dairəsində olan digər ölkələrdə - Anqola, Konqo, Venesuela, Kuba, Suriya kimi dövlətlərdəki iqtisadi və sosial vəziyyət hansı inkişaf yolu tutacağımıza və tutmalı olacağımıza dair konkret istiqamət verir.

***- Amma fakitiki olaraq Rusiya adlarını sadaladığınız dövlətlərlə yanaşı, post-sovet ölkələrini də öz təsirindən buraxmaq istəmir. Belə olduğu halda, biz necə dediyiniz yolu tuta bilərik?***

- Hamıdan üzr istəyərək, kobud olsa da bir misal çəkəcəm. Təsəvvür edin ki, arvadına pis baxan, yedirməyən, geydirməyən, döyən, söyən bir şəxs boşanır. Bu qadın yenidən ailə qurmaq istəsə, əvvəlki "kişi" ona hər vasitə ilə mane olur, öz xoşbəxt həyatını qurmağa imkan vermir, hətta vurub öldürür. Yəni Rusiyanın davranışı həmin bu "kişi"yə bənzəyir. Biz bir yerdə yaşamışıq, görmüşük, yaxşı bir həyatımız olsaydı, niyə müstəqillik uğrunda mübarizə aparırdıq?! Dünyada federasiya şəklində xoşbəxt, firavan yaşayan xalqlar azdır? Lakin, hesab edirəm ki, üç Pribaltika respublikası istisna olmaqla, yerdə qalan digər keçmiş müttəfiq respublikaların, hazırkı müstəqil dövlətlərin Rusiyanın təsirindən tam yaxa qurtaracağı yaxın perspektivdə mümkün görünmür. Rusiya rəsmilərinin və hətta qeyri-rəsmilərinin mütəmadi olaraq müstəqil dövlətlərin bostanına daş atdığının, hədə-qorxu gəldiyinin şahidi oluruq. Bu ölkələrin heç də hamısı Azərbaycan Respublikası kimi balanslaşdırılmış xarici siyasət aparmağa nail ola bilməmişdir. Bunun nəticəsinin ən bariz nümunəsi hazırda Rusiya və Ukrayna arasında aparılan müharibədir. Ukraynanın son illərdəki siyasəti Rusiyanın əlinə əsassız bir bəhanə vermiş oldu. Harada Qərbmeylli qüvvələrin hakimiyyətə gəlişi hiss olunursa, Rusiya öz emissarlarını həmin ölkəyə göndərir. Qonşu Gürcüstanda Mixail Saakşvilinin Qərbpərəst mövqe göstərməsinin nəticəsini görürük. Rusiyanın tapşırığı ilə Bidzina İvanişvili Gürcüstana gəldi, aktiv siyasətə qoşuldu və gürcü xalqına böyük populist vədlər verməklə hakimiyyəti ələ aldı. Başqa bir emissar Ruben Vardanyan da Qərbpərəst mövqe tutduğunu elan edən Paşinyan hökumətinə qarşı istifadə olunmaq üçün Rusiya tərəfindən keçmiş Dağlıq Qarabağa göndərildi. Məqsəd artıq tarixə qovuşmuş münaqişədən istifadə edərək, Vardanyanın əli ilə Paşinyanı devirmək idi. Lakin şanlı ordumuzun və hüquq mühafizə orqanlarının həyata keçirdiyi əməliyyat nəticəsində, o, hazırda Bakının yuxarı hissəsindəki binada təmiz hava qəbul edir. Yəni demək istəyirəm ki, Rusiya öz imperiya siyasətindən əl çəkməyincə, bu cür fəaliyyətin dayandırılacağını da zənn etmirəm. Hamımızın yadındadır, 2013-cü ildə Rusiya Azərbaycandakı növbəti prezident seçkiləri ərəfəsində bizə qarşı da belə bir addım atmış, "Milyarderlər ittifaqı" adlı bir qurum yaratmışdı. Lakin möhtərəm İlham Əliyevin "nöqtə atışı" ilə həmin ittifaqdan Azərbaycana qarşı istifadənin qarşısı alındı.

> Fikrimcə, bu cür bəyənatlar düzgün deyil, həmin adamları Gürcüstanın daxili işlərinə qarışmaqda günahlandıra bilərlər. Hesab edirəm ki, Avropa İttifaqı və ya ABŞ Gürcüstandakı seçkilərlə bağlı hansısa sanksiyalar tətbiq edəsi olsa, biz bu adamların adlarını həmin sanksiya siyahılarında görəcəyik...

***- Hesab edirsiniz ki, balanslaşdırılmış siyasətimiz bizi Rusiyanın təxribatlarından qoruyacaq?***

- Balanslaşdırılmış siyasətin alternativi yoxdur. Bu siyasətlə biz nəinki uzun müddət Rusiyanın təsirindən qoruna bilərik, həm də Qərb ölkələri ilə əlaqələri genişləndirərik. Lakin vacib olan odur ki, Rusiya özü də imperialist siyasətindən əl çəksin. Yoxsa nə zamansa, hansısa bir bahanə ilə bizə növbəti problemləri yarada bilər. Burada İvan Krılovun uşaqlıqdan oxuduğumuz "Qurd və quzu" təmsilinin süjeti indi yaşana biləcəklərin dəqiq izahını verir. Rusiya üçün hansısa bir dövlətə problem yaratmağa bəhanə tapmaq asandır.

***- Yeri gəlmişkən, Azərbaycan vətəndaşı olan bəzi rəsmi və qeyri-rəsmi şəxslər Gürcüstanda keçirilən parlament seçkiləri zamanı İvanişvilinin komandasına dəstək verdiklərini elan etdilər. Cəmiyyətdə isə belə bir fikir var ki, bütün bunlar Rusiyanın təsiri ilə baş verib...***

- Azərbaycan hakimiyyət orqanlarının Gürcüstanın hazırkı hakimiyyəti ilə münasibətləri hazırda çox yüksək səviyyədədir.

# aq fəaliyyətinə kobud müdaxilə etmişdi...”

## “Təəssüf ki, Elçibəyin məsələyə münasibəti də digərlərindən fərqlənmədi...”

Lakin bu, həmişə belə olmamışdır. Bidzina İvanişvili 2012-ci ildə hakimiyyətə gəldikdən dərhal sonra Azərbaycan Respublikasının əleyhinə bir çox ciddi fikirlər bildirmişdir. Xüsusən, onun Bakı-Tiflis-Qars dəmiryolunun rentabelli olmayacağı və gələcəkdə tikintinin dayandırılacağı ilə bağlı mənafeyimizə uyğun olmayan çıxışları da vardı. Lakin 2012-ci ilin dekabr ayında Azərbaycan Respublikasına səfəri zamanı möhtərəm Prezidentimiz ona, necə deyərlər, fəlsəfənin əsas məsələsini başa saldı. Həmin görüşdən dərhal sonra Bidzina İvanişvili qeyd olunan fikirlərin tələsik verilmiş bəyanat olduğunu açıq etiraf etdi. O da Azərbaycanın Cənubi Qafqazda lider ölkə olduğu ilə barışdı və sonrakı münasibətlər əhəmiyyətli dərəcədə yaxşılaşdı.

Mən Azərbaycan hakimiyyətinin Gürcüstandakı seçkilərə nə dərəcədə kömək etdiyini deyə bilmərəm. Lakin bu kömək olunubsa belə, Rusiyanın təsiri ilə ola bilməzdi. Hesab edirəm ki, Azərbaycan hakimiyyətinin Gürcüstana dost münasibətinin əsasında, digər məsələlərlə yanaşı, torpaqlarımızın azad edilməsu uğrunda 44 günlük müharibə zamanı rəsmi Tiflisin ortaya qoyduğu mövqe durur. Bəlli olduğu kimi, həmin vaxt Gürcüstan öz ərazisi ilə Ermənistana silah daşınmasına imkan verməmişdir.

İndi bəzi Rusiyapərəst mövqe göstərən şəxslərin hər halda yadından çıxmışdır ki, əvvəllər olduğu kimi, 44 günlük müharibə dövründə də Rusiya Ermənistanı silahlandırmağa davam etmişdir və Gürcüstan öz ərazisini bağlamasından sonra həmin silahlar Türkmənistan və İran ərazisindən keçərək Ermənistana çatdırılmışdır.

Digər tərəfdən, sizin də qeyd etdiyiniz vacib bir məqamı vurğulamaq istəyirəm ki, Azərbaycan Respublikasının bəzi vətəndaşları seçki öncəsi Gürcüstana getdiklərini və hakim partiyanın xeyrinə təbliğat apardıqlarını həm mətbuatda, həm də sosial şəbəkələrdə aşıq-aşkar etiraf edirlər. Bəziləri isə bir az da qabağa gedərək, bunu Azərbaycan Respublikasının mənafeyi üçün etdiklərini, bu barədə onlara müvafiq tapşırıq verildiyini bildirirlər. Fikrimcə, bu cür bəyənatlar düzgün deyil, həmin adamları Gürcüstanın daxili işlərinə qarışmaqda günahlandıra bilərlər. Hesab edirəm ki, Avropa İttifaqı və ya ABŞ Gürcüstandakı seçkilərlə bağlı hansısa sanksiyalar tətbiq edəsi olsa, biz bu adamların adlarını həmin sanksiya siyahılarında görəcəyik.

***- Gürcüstandan söhbət düşmüşkən, hökumət rəsmiləri seçkidən sonra Qərbə inteqrasiya xəttinə sadiq olduğunu bəyan etdi. Sizcə, bu, etirazçıları sakitləşdirmək üçün ortaya atılan bir siyasi gediş idi, yoxsa Gürcüstan həqiqətən də Rusiyanın nəzarətinə keçməyib?***

- Mən o bəyanatları taktiki gediş kimi qəbul edirəm. 2023-cü ildə Avropa Komissiyası Aİ-yə inteqrasiya üçün Gürcüstan qarşısında konkret 9 şərt qoymuşdu. Həmin şərtlərin, demək olar ki, heç biri yerinə yetirilmədi. Gürcüstan hakimiyyətinin Avropaya inteqrasiya barədə bəyanatları elə öz daxillərində də ziddiyyətlə qarşılanır. Qeyd etdiyiniz bəyanatla bərabər, digər rəhbər şəxslər Gürcüstanın Avropa yoluna əsas maneə kimi görünən xarici təsirin şəffaflığı və LGBT-nin təbliğatına qadağa qoyulması barədə qanunları ləğv etməyəcəklərini bildirdi. Ona görə, Gürcüstanın hökumət rəsmiləri Avropaya inteqrasiya xəttinə sadiq qaldıqları haqda bəyanatı ilə həm avropalı siyasətçiləri sakitləşdirməyə, həm də müxalif cəbhədən kimlərisə öz tərəflərinə cəlb etməyə və parlamentin işə başlamasına nail olmağa çalışırlar.

***- Sizcə, o halda Qərb niyə Gürcüstan müxalifətinin arxasında durmadı?***

- Əvvəlki müsahibədə qeyd etdiyimiz kimi, İvanişvilinin komandası hakimiyyətə gəldikdən sonra yavaş-yavaş ölkənin Qərb qarşısında götürdüyü öhdəliklərdən boyun qaçırmağa başladı. Eyni zamanda, Saakaşvilinin özü uzun müddətdir müxtəlif ittihamlarla həbsxana həyatı yaşayır. Qərb gördü ki, Gürcüstan müxalifətində sinəsini qabağa verə biləcək bir lider yoxdur. Və müxalifətin özü də seçkiyə vahid blok altında yox, 4 blokda birləşmiş siyasi partiyalar halında qatılmışdı. Yəni nə müxalifətin vahidliyi görünmürdü, nə də onu qabağa aparacaq lider yox idi. Bu ilin yazında Gürcüstan parlamenti tərəfindən qəbul olunmuş xarici təsirin şəffaflığı haqda qanuna etiraz aksiyaları zamanı Qərb Gürcüstan müxalifətinin real gücünü gördü. Yəni bu aksiyalar müxalifət üçün bir növ imtahan oldu. Qərb başa düşdü ki, bu vəziyyətdə mövcud müxalif qüvvələrlə hansısa bir real nəticəyə sahib olmaq mümkün deyil. Ona görə də seçkidən sonra Qərb müxalifətə kifayət qədər dəstək vermədi. Sadəcə, Gürcüstanın Avropa İttifaqına yolunun bağlanmasını elan edən bəyanatlar verməklə öz işini bitmiş hesab etdi.

***- Tiflisdə yüzminlik mitinqlərin keçirilməsi Qərb üçün yetərli deyildi?***

- Məsələ kəmiyyətdən yox, keyfiyyətdən gedir. Qərb gördü ki, yüz minlik mitinqlər keçirilməsinə baxmayaraq, müxalifətdə birlik və bu qüvvələri öz arxasınca apara biləcək vahid lider yoxdur.



> İndi bəzi Rusiyapərəst mövqe göstərən şəxslərin hər halda yadından çıxmışdır ki, əvvəllər olduğu kimi, 44 günlük müharibə dövründə də Rusiya Ermənistanı silahlandırmağa davam etmişdir və Gürcüstan öz ərazisini bağlamasından sonra həmin silahlar Türkmənistan və İran ərazisindən keçərək Ermənistana çatdırılmışdır...

***- Az əvvəl, uğurlu xarici siyasətin həyata keçirilməsi üçün əlverişli şərait yaratmaq vəzifəsinin Xarici kəşfiyyat xidmətinə məxsus olduğunu bildirdiniz. Belə anlaşılır ki, uğurlu xarici siyasətimiz həm də uğurlu kəşfiyyat xidmətindən asılıdır...***

- İstinad etdiyimiz fikir “Kəşfiyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” və “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikası qanunlarının müddəalarına əsaslanmışdır. Şübhəsiz ki, Xarici İşlər Nazirliyi və digər əlaqədar orqanlarla yanaşı, Xarici kəşfiyyat xidməti də bu işdə mühüm vəzifələr daşıyır.

***- Keçən dəfə də bildirdiniz ki, xarici siyasətlə bağlı fikir bildirmək istəmirsiniz. Amma müsahibələrinizdə kifayət qədər maraqlı fikirlər səsləndirmisiniz. O halda, niyə bu barədə danışmaq istəmirsiniz?***

- Əvvəl də qeyd etdiyim kimi, Azərbaycan cəmiyyəti hazırda əsasən 2 yerə bölünmüşdür: xarici siyasət, beynəlxalq vəziyyət barədə çıxışlar edən politoloqlar, ekspertlər, geopolitiklər və “Baboş” kimilərini təbliğ edən şoubiznes nümayəndələri. İkincilər barədə ümumiyyətlə danışmaq, hansısa fikir bildirmək istəmirəm. Bu, bir zövq məsələsidir. Cəmiyyətin başı bu işlərə hədsiz dərəcədə qarışıb.

Birincilərə gəldikdə, deməliyəm ki, xarici siyasəti və beynəlxalq vəziyyəti ekspert səviyyəsində bilən, təhlillər aparan, proqnozlar verən kifayət qədər tanınmış və savadlı siyasətçilərimiz və aparıcılarımız vardır. Mən özüm də onlara mütəmadi və maraqla qulaq asıram. Lakin bu fikirləri hamısı barədə demək olmaz. Bununla yanaşı, şəxsən mənim fikrimcə, xarici siyasət və beynəlxalq vəziyyət barədə danışmaq, proqnoz vermək, fikir bildirmək asandır, təhlükəsiz və risksizdir, daxildə heç kimin adını çəkmirsən, fəaliyyətini tənqid və ya təftiş etmirsən, xətrinə dəymirsən. Ab-havanı tutursan, başlayırsan danışmağa, proqnozlar verməyə və s. Bu prqonozlar düz və ya səhv çıxa bilər, kimdir onların uçotunu aparan, araşdıran?! Misal üçün, Azərbaycanda oturub Rusiya-Ukrayna, yaxud İran-İsrail münasibətlərindən danışmaq hansı təhlükəni yarada bilər? Bir də görürsən ki, bir politoloq çıxıb Uqledarda, yaxud Avdeevkada aparılmış hərbi əməliyyatlar, hansı silahlardan istifadə olunması, hansı küçənin kim tərəfindən tutulması haqda uzun-uzadı fikirlər danışır. Eyni şeyləri İran-İsrail münasibətləri, yaxud digər münaqişələr, siyasi proseslər, tutaq ki, ABŞ-da keçirilən seçkilər və s. barədə də söyləmək olar. Düzdür, bu proseslərin hamısının Azərbaycana az-çox aidiyyəti vardır, lakin əhalinin başını bu qədər informasiya ilə doldurmağın əhəmiyyəti varmı?

Qeyd etdiyim kimi, bu çıxışları edənlər üçün heç bir risk və təhlükə yoxdur. Sadəcə, Rusiyapərəstlər Ukraynanın xeyrinə danışan təhlilçiləri, politoloqları söyür, təhqir edir, Ukraynapərəstlər də Rusiyanın lehinə danışanları və s.

Əlbəttə, Azərbaycanda heç də hər şey tənqid olunacaq vəziyyətdə deyil. Kifayət qədər uğurlar, inkişaf vardır. Lakin uğur və inkişafı tərifləyənlər həddən artıq çoxdur, hətta deyərdim orada da özünəməxsus inhisar və güclü rəqabət vardır. Eyni zamanda, Azərbaycanın daxilində xeyli həll olunmamış sosial, hüquqi problemlər də mövcuddur. Dövlətini və millətini sevən bir şəxs olaraq, inkişafımız üçün bu problemlərdən danışmağı tərcih edər və onların həllini arzulayardım.

Daxili problemlər barədə danışanda mütləq kiminisə, hansısa bir strukturun adını çəkməli olursan, hansısa vəzifəli şəxsin xətrinə dəyə bilərsən, kimsə onunla bağlı inciyər, məhkəməyə verə bilər, başağrısı olar və s. Azərbaycanda vəzifəli şəxslərin əleyhinə ancaq o zaman danışılır ki, o, vurulmuş olsun, yaxud vurulması planlaşdırılsın. Bu nöqteyinəzərdən daxili problemlərdən danışmaq xeyli təhlükəlidir və daha çox cəsarət tələb edir.

***- Demək istəyirsiniz ki, Siz cəsarətli adamsınız?***

- Bəli, mən kifayət qədər cəsarətli adamam.

***- Sizin müstəntiq işlədiyiniz dövrdə Azərbaycanın o vaxtkı Prezidenti Əbülfəz Elçibəylə fikir mübadiləniz olduğu haqda məlumatımız var. Bu, necə baş verdi?***

- Bu, fikir mübadiləsi deyildi. Həmin dövrdə Azərbaycanın daxili işlər naziri olmuş mərhum İsgəndər Həmidovun Milli Təhlükəsizlik Nazirliyinin istintaq fəaliyyətinə kobud və qanunsuz müdaxiləsinin nəticəsi olaraq yaranmış bir etiraz idi. Həmin vaxt MTN-ə və Respublika Prokurorluğuna rəhbərlik edən şəxslərin dişsizliyi səbəbindən məsələnin həllinə Əbülfəz Elçibəy vasitəsilə nail olmaq istəmişdim. Təəssüf ki, Elçibəyin məsələyə münasibəti də digərlərindən fərqlənmədi.

***- Əbülfəz Elçibəylə hansı şəraitdə görüşmüşdünüz və Sizin etirazınıza reaksiyası necə oldu?***

*(Ardı var)*

**Söhbətləşdi: Anar HƏSƏNLİ**

# Abxazlar Rusiyadan xilas olmağa çalışır?



(Əvvəli səh. 3-də)

Rusiyanın Abxaziyadakı dəniz bazası planlarına baxmayaraq, daimi baza nöqtəsi dəniz bazası üçün tam əvəz deyil və onun tikintisi müəyyən vaxt aparacaq. Rusiya Qara dəniz donanmasının böyük hissəsi Sevastopoldan Novorossiysk və Feodosiyaya hərəkət edir. Bütün bunlar birlikdə Rusiyanın Qara dənizdə donanmasını daha harada yerləşdirə biləcəyi barədə düşünməyə başladığını deməyə əsas verir və Krımda hiss etdiyi qeyri-müəyyənliyi ortaya qoyur. Bu qeyri-müəyyənlik Ukraynanın təkcə quruda deyil, dənizdə də strateji təşəbbüs əldə etdiyi bir vaxta təsadüf edir...

Sovet dövründə hərbi dəniz bazasının yerləşdiyi Oçamçiradakı Rusiya bazası xəbəri Kremlin Sevastopol üçün alternativ axtardığını, eləcə də Qara dəniz sahillərində hərbi mövcudluğunu Türkiyəyə doğru genişləndirdiyini göstərir. Xarici nəşrlər yazır ki, (The Wall Street Journal) Ukraynanın hücumları səbəbindən Rusiya Qara dəniz donanmasının böyük hissəsini ilhaq etdiyi Krımdakı əsas bazasından çıxarıb. Nəşr öz mənbələrinə və peyk şəkillərinə istinad etmişdi, onların həqiqiliyi dəniz ekspertləri tərəfindən təsdiqlənmişdi. Məlumata görə, Rusiya güclü gəmiləri, o cümlədən üç hücum sualtı qayığını və iki freqatını Sevastopoldan Rusiya və Krımın daha yaxşı müdafiəni təmin edən digər limanlarına köçürüb. Mütəxəssislərin fikrincə, gəmilər hələ də qanadlı raketlərlə limanlar və elektrik şəbəkələri kimi mülki infrastrukturları vura biləcəklər. Ən azı 17 Rusiya gəmisi Sevastopoldan Novorossiyskə köçüb. Abxaziyada nəzərdə tutulan yeni bazanın yeri Novorossiyskdən 500 km cənub-şərqdə yerləşir.

"Wall Street Journal" yazır ki, Ukraynanın zərbələri artıq Ukrayna limanlarının dəniz blokadasını pozub, Rusiyanı Qara dənizin bəzi hissələrinə çıxışdan məhrum edib və Ukraynaya iqtisadi əhəmiyyətli taxıl daşımaları üçün yeni dəhliz açıb.

Kreml Abxaziyada Rusiya donanması üçün daimi baza tikmək planları barədə məlumatı təsdiqləməkdən imtina edib. "Bu barədə şərh verə bilmərəm. Bölmələrimizin, gəmilərimizin, bölmələrimizin yerləşdirilməsi ilə bağlı məsələlər Müdafiə Nazirliyinin səlahiyyətindədir", deyə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə bildirib.

Rusiyanın Abxaziyadakı dəniz bazası planlarına baxmayaraq, daimi baza nöqtəsi dəniz bazası üçün tam əvəz deyil və onun tikintisi müəyyən vaxt aparacaq. Rusiya Qara dəniz donanmasının böyük hissəsi Sevastopoldan Novorossiysk və Feodosiyaya hərəkət edir. Bütün bunlar birlikdə Rusiyanın Qara dənizdə donanmasını daha harada yerləşdirə biləcəyi barədə düşünməyə başladığını deməyə əsas verir və Krımda hiss etdiyi qeyri-müəyyənliyi ortaya qoyur. Bu qeyri-müəyyənlik Ukraynanın təkcə quruda deyil, dənizdə də strateji təşəbbüs əldə etdiyi bir vaxta təsadüf edir. Bundan əvvəl Ukrayna hakimiyyəti bəyan etmişdi ki, Ukrayna Silahlı Qüvvələrinin qarşısında duran vəzifələrdən biri Qara dəniz donanmasını Ukraynanın ərazi sularını tərk etməyə məcbur etməkdir. İndi bu vəzifə qismən tamamlanıb. İndi gəmilər ən azı 200 kilometr daha çox döyüş növbətçiliyinə keçid etməli olacaqlar. NATO-nun kəşfiyyat təyyarələrinin Qara dəniz bölgəsində daim xidmətdə olduğunu nəzərə alsaq, bu, çox güman ki, Qərbdəki tərəfdaşlarından məlumat alan ukraynalılara Rusiya hərbi gəmilərinin hazırlanması və niyyətlərini qiymətləndirmək üçün əlavə vaxt verəcək.

Rus gəmilərinin hərəkətində böyük rol oynayan üçüncü hal Sevastopolun dəniz bazası yerləşdirmək üçün ən əlverişli Qara dəniz körfəzi olmasıdır. Sevastopol körfəzi ilə müqayisədə (əslində, Sevastopol ərazisində bir neçə rahat körfəz var), Tsemesskaya naviqasiya, hava şəraiti, eləcə də ölçüsü baxımından daha mürəkkəbdir - mülki, ticarət və hərbi donanmaların infrastrukturunu ehtiva edir. Krımın ilhaqından əvvəl Rusiya bu körfəzdə hərbi dəniz bazası yaratmağı planlaşdırırdı, Ukrayna Sevastopol bazasında icarə müddətini uzatmaqdan imtina edərsə, bu, ehtiyat variant kimi qəbul edilirdi. Hətta müvafiq məqsədli proqram qəbul edildi, lakin gəmi təmiri obyektləri, anbarlar və donanma üçün zəruri olan digər obyektlərlə bərabər böyük infrastruktur qurmaq fiziki cəhətdən mümkün deyildi. Məsələn, Tsemes körfəzində quru dok yoxdur.

Buna görə də Qara Dəniz Donanmasının qüvvələrinin daha az inkişaf etmiş və daha böyük bazalar üzrə bölüşdürülməsi onun əməliyyatlarını xeyli çətinləşdirəcək. Baxmayaraq ki, Sevastopol bazasının infrastrukturu olmasa, Rusiya donanması üçün çox çətin olacaq və çox güman ki, ora hərbi gəmilər daxil olacaq.

Bütün sadalananlardan göründüyü kimi, Ukraynanın hücumları qarşısında işi çətinə düşən Rusiya Abxaziyanı Sevastopol və Novorossiysk əvəzinə istifadə edə bilmək üçün zəbt etmək fikrindədir. Təbii ki, bu vəziyyətdə Abxaziyanı Gürcüstana qaytarmaqdan söhbət gedə bilməz, bu, ağ yalandır.

Bəs, ərazisində hərbi dəniz bazası yerləşdirməyə hazırlaşan qondarma dövlətciyi Gürcüstana qaytaracağı şayiəsi Rusiyanın nəyinə lazım idi? Bəzi rus ekspertləri, daha dəqiq desək politoloq İlya Qraşenkov məsələni belə şərh edir ki, Rusiya nüfuz dairəsinin "boz zonasında" yerləşən bu az tanınan dövlət haqqında praktiki olaraq heç kim heç nə bilmir: "Ruslara yalnız orada naringilərin bitdiyi məlumdur, amma başqa nə olduğunu heç kim bilmir. Orada turizm daha geniş şəkildə inkişaf edə bilərdi, lakin buna bir sıra amillər mane olur ki, onlardan biri hazırkı çevriliş cəhdinə səbəb olub". Yəni, sən demə, hazırkı çevriliş cəhdinin səbəbkarı abxazlardır.

Politoloq ifadə edir ki, əslində, "Rusiya ətrafında bir neçə belə "boz zona" var. Bura Abxaziya, Cənubi Osetiya və Dnestryanı daxildir. Müəyyən mənada belə zonalar Belarus kimi tanınan, lakin sanksiyaya məruz qalan dövlətlərdir. Xarici dövlətlərin tərkibində yalnız rus əhalisinin yaşadığı ərazilər var, məsələn, Qazaxıstanın şimalı. Əvvəllər belə ərazilər Ukraynanın şərqindəki bölgələr, daha sonra Rusiya Federasiyasının tərkibinə daxil olan qondarma Luqansk respublikası idi. Bununla belə, bu cür "boz sahələr" yaratmaq və saxlamaq təcrübəsi bir vaxtlar olduqca populyar idi. İndi onlarla nə edəcəyinizi düşünməyin vaxtı gəlibmi?"

"2020-ci ilə qədər bütün bu "boz zonalar" təkcə qidalanma obyekti deyil, həm də Rusiya ilə Avropa və Şərqin bir sıra ölkələri arasında əlverişli bufer idi", deyən politoloq belə bir sual düşündürür ki, "xarici dəstək olmadan defakto mövcud ola bilməyən bu dövlətlərə kim sahib çıxacaq?"

Abxaziyada rus rublu aşıbdaşmır, bunu sadə təbliğatçılar iddia edirlər. Sosial xidmətlər və "korrupsiya xərcləri"nə pul yetir, lakin bu, heç də bolluq mənbəyi deyil. ÜDM-in 80%-dən çoxu Abxaziya iqtisadiyyatının özündən gəlir, bu maliyyənin 70%-dən çoxu birbaşa və ya dolayı yolla turizmdən əldə edilən gəlirdir. Siyasi mübarizə əslində bu "mövzu" üstündə başladı. Hər şey - "Biz əcdadlarımızın torpağından əl çəkməyəcəyik" şüarı ilə meydana gəldi. Rusiya müəyyən qədər Abxaziyaya sponsorluq etdi və nəhayət, rəsmi olaraq ora getməyə qərar verdi. İndi yalnız abxazların özləri (yaxud belə pasport almışlar) Abxaziyada torpaq ala bilərlər, yəni hələ ki, torpaqların kütləvi alınması mümkün deyil. Qondarma Abxaziya hökuməti əsas resursunu tərəflərdən birinə (Rusiya və ya Gürcüstana) verərsə, müstəqilliyin unudula biləcəyini anlayaraq bu variantı dondurdu. Baxmayaraq ki, müstəqillik bəzi yerli elitalar üçün Rusiya Federasiyasından maliyyə axınından faydalanmaq üçün sadəcə bir fürsətdir. Yəni Bjaniya qondarma müstəqilliyi bəhanə edib, Rusiyadan pul çəkirdi. Amma artıq Ukrayna müharibəsində yıpranan Rusiyanın maliyyə gücü tükənir. Belə anlaşılır ki, "Gürcü arzusu"na Abxaziya və Cənubi Osetiyanı müharibəsiz qaytara biləcəyi vədi verməklə və bu vədlə Bidzina İvanişvilinin seçkiləri qazanmasına stavka edən Kreml bu iki subyektin maliyyələşdirilməsini, yəni saxlanmasını Gürcü hökumətinə həvalə, eyni zamanda özü üçün sərfəli olan Oçamçirada rus hərbi bazasını inşa etməklə, Krımdakı hərbi donanmanı buraya köçürərək, bir daşla bir neçə dovşan vurmaq fikrindədir. Kreml həm Abxaziya ilə Cənubi Osetiyanın "dolanışığını" Gürcüstanını üstünə atmaq, həm də "Gürcü arzusu" hökumətinin dəstəyi ilə özünün hərbi dəniz bazası planını reallaşdırmaq istəyir.

Rus politoloq İlya Qraşenkov eləcə də hesab edir ki, Rusiya biznesinə qarşı müqavimət fonunda regionda güc qazanan dövlətlərin geosiyasi gözləri Abxaziyaya dikilib. "Söhbət ilk növbədə Azərbaycanda onsuz da ciddi təsirə malik olan, lakin daha az dost olan Gürcüstanda, hətta düşmən Ermənistanda da nüfuzunu tədricən artırmaq istəyən Türkiyədən gedir. Gürcüstanın özünün indi kifayət qədər öz problemləri var, ona görə də onlar daha çox Abxaziya böhranını izləyirlər, lakin hər an "proksi" kimi öz xidmətlərini təklif etməyə hazırdırlar" cümlələrini yazan ekspert Rusiyanın üzdə məcburi "mehriban" davrandığı Türkiyəyə arxa planda hansı mövqedə olduğunu üzə çıxarır. Təbii ki, Rusiya ilə Türkiyə ara-sıra baş tutan işbirliyinə baxmayaraq, "situativ" müttəfiqlər və "mehriban düşmənlərdir".

Sonda isə deyək ki, Rusiyanın Cənubi Qafqazda - Azərbaycan və Ermənistanda gücünü saxlaması, qanunverici orqan olan parlamenti öz siyahısındakı şəxslərin təmsil etməsi, parlament seçkilərinə müdaxiləsi fonunda Abxaziyada baş verənlərə "Qərbin qisası" kimi də baxa bilərik. Təsadüfi deyil ki, Rusiya mediasında Abxaziyadakı hadisələri Qərb xüsusi xidmətlərinin oradakı QHT-lərin maliyyələşdirilməsi vasitəsi ilə baş verdiyini səsləndirirlər. Hələ ki, abxaz müxalifəti yeni seçkilərin keçirilməsinə qədər ölkəni vitse-prezident Qunbanın idarə etməsinə razılaşıb və tələb ediblər ki, güc nazirliklərinin rəhbərləri öz vəzifələrini tərk etməlidirlər.

**Ülviyyə ŞÜKÜROVA**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Uşaq və gənclərin fiziki və mənəvi inkişafı**

*"Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır".*

*Məhəmməd Tağı Sidqi*

# Gənclərin mənəvi sağlamlığında təhsilin rolu

## Kamran Əsədov: "Uşaq və gənclərin mənəvi inkişafı cəmiyyətin gələcəyi üçün böyük əhəmiyyət daşıyır"



**Dövlətimizin və millətimizin işıqlı gələcəyi onun yetişdirdiyi gənc nəsildən asılıdır. Yəni hər bir dövlətin, cəmiyyətin əsasını uşaq və gənclər müəyyən edir.**

Çox eşitdiyimiz bir deyim var: "Hər bir uşaq ailənin güzgüsüdür". Uşaq hansı mühitdə böyüyürsə, o mühitin tərbiyəsini alır. Buna görə də valideynlər və onların davranışları övladların tərbiyəsinə birbaşa təsir edir. Müəyyən bir yaş dövrü var ki, necə deyərlər, uşağın "aşına nə töksək, qaşığına da o çıxır". Uşaqların, gənclərin davranışları sonradan formalaşan xüsusiyyətlərdir. Uşaq qüsurlu doğula bilər. Amma davranış qüsuru ilə anadan olan uşaq yoxdur.

Gənclərin də mənəvi sağlamlığı onların düzgün təlim-tərbiyəsindən asılıdır. Uşaqlar valideynlərin tərbiyəsi ilə yanaşı, orta məktəblərdə də düzgün istiqamətə yönləndirilməlidirlər. Lakin, təəssüf ki, son zamanlar sosial şəbəkələrdə uşaqların və yaxud müəllimlərin xoşagəlməz hərəkətlərini əks etdirən video görüntülərlə tez-tez rastlaşırıq. Bu hallarla qarşılaşmamaq üçün uşaqlarımızı, yeniyetmə və gənclərimizi pis vərdişlərdən uzaqlaşdırmaq, onları sağlam həyata ruhlandırmaq lazımdır.

### "Azərbaycan təhsil sistemi gənclərin mənəvi inkişafında müəyyən uğurlar əldə edib"

Əlbəttə, hər bir uşağın və gəncin gələcəkdə layiqli vətəndaş kimi yetişməsində onun mənəvi və fiziki tərbiyəsi ilə yanaşı, təhsili də önəmli yer tutur. Məsələ ilə bağlı təhsil eksperti Kamran Əsədov "Hürriyyət"ə açıqlamasında bildirdi ki, uşaq və gənclərin mənəvi inkişafı cəmiyyətin gələcəyi üçün böyük əhəmiyyət daşıyır: "Onların dünyagörüşü, xarakterləri və dəyərləri kiçik yaşlardan formalaşır və bu prosesdə təhsil mühüm rol oynayır. Təhsil sistemi gənclərin bilik və bacarıqlarını artırmaqla yanaşı, onların şəxsiyyətlərinin formalaşmasına da təsir göstərir. Azərbaycanda bu istiqamətdə müəyyən nailiyyətlər əldə olunub, lakin hələ də təkmilləşdirilməli sahələr mövcuddur.

Azərbaycan təhsil sistemi gənclərin mənəvi inkişafında müəyyən uğurlar əldə edib. Müxtəlif təhsil proqramları, yarışmalar, tədbirlər gənclərin intellektual və sosial inkişafına dəstək verir. Məktəblərdə tərbiyə işləri ilə yanaşı, müasir texnologiyalardan istifadə edilməklə gənclərin dünya görüşünün genişlənməsinə imkan yaradılır. Xüsusilə STEAM və layihə əsaslı tədris proqramları şagirdlərin yalnız nəzəri biliklərə deyil, həm də tətbiqi bacarıqlara yiyələnməsini təmin edir.

Bundan başqa, müxtəlif sosial layihələr, könüllü fəaliyyətləri və karyera yönümlü tədbirlər vasitəsilə gənclərin özlərini cəmiyyətdə aktiv hiss etmələri üçün şərait yaradılır. Buna baxmayaraq, mənəvi dəyərlər, millət sevgisi və mədəni irsə bağlılıq kimi məsələlərin daha dərindən öyrədilməsi üçün addımlar atılmalıdır.

Gənclərin təhsilə həvəsləndirilməsi üçün onların maraqlarına uyğun, interaktiv və yaradıcı tədris metodları tətbiq edilməlidir. Gənclərin təhsil prosesinə aktiv qatılmasını təmin etmək üçün məktəblərdə müasir texnologiyaların istifadəsi artırılmalı, layihə əsaslı öyrənmə və problem həllinə əsaslanan təhsil tətbiq edilməlidir. Onlara öz biliklərini tətbiq edə biləcəkləri real həyat layihələri təklif etmək gənclərin marağını artırır və təhsilə olan motivasiyalarını gücləndirir. Müxtəlif peşəkar insanlarla görüşlər, təcrübə proqramları və təlimlər vasitəsilə onların təhsil sahəsindəki perspektivlərini genişləndirmək mümkündür. Həmçinin, gənclərin təhsildə fərdi maraq və məqsədlərinin nəzərə alınması, hər bir şagirdin öz məqsədinə uyğun olaraq təhsildə irəliləməsi üçün şərait yaradılması motivasiyanı artırır".



### "Bu metodlar Azərbaycanda da tətbiq edilə bilər"

Ekspert qeyd edir ki, gənclərin mənəvi inkişafında praktiki metodların əhəmiyyəti böyükdür: "Bu metodlardan biri layihə əsaslı tədrisdir. Bu tədris metodu şagirdlərə nəzəri bilikləri praktiki olaraq tətbiq etməyə imkan verir. Məsələn, şagirdlər öz layihələrini yaratmaq, onları həyata keçirmək və nəticələrini təqdim etmək üçün çalışırlar. Bu da onların liderlik, problemi həll etmə və yaradıcılıq bacarıqlarını inkişaf etdirir. Simulyasiya metodlarından istifadə etmək, şagirdlərin müxtəlif situasiyalarda qərar qəbul etmələrini və nəticələri dəyərləndirmələrini təmin edir. Debat və müzakirələr təşkil etməklə onların öz fikirlərini ifadə etmə bacarığı inkişaf etdirilir. Eyni zamanda, şagirdlərin real həyatda olan problemləri həll etmək üçün əməkdaşlıq etmələri də vacibdir. Bu cür praktiki metodlar uşaqların mənəvi inkişafında onların sosial bacarıqlarını və özünəinamlarını artırır.

Dünyanın inkişaf etmiş ölkələrində istifadə olunan bəzi metodlar Azərbaycanda da tətbiq edilə bilər. Məsələn, Finlandiyada istifadə olunan layihə əsaslı təhsil modeli gənclərin öz maraqlarına uyğun layihələr üzərində işləmələrini və bu yolla öyrənmələrini təmin edir. ABŞ-da tətbiq olunan "şagird mərkəzli təhsil" metoduna əsasən, təhsil prosesində şagirdlərin fərdi xüsusiyyətləri nəzərə alınır və onların maraqları əsasında dərslər keçir. Yaponiyada tətbiq edilən və şagirdlərin fəal şəkildə problemləri həll etmələrini təmin edən "problem əsaslı öyrənmə" metodları Azərbaycanda da tədrisə tətbiq oluna bilər. Bu metodlar təhsilin şagirdlər üçün daha maraqlı və öyrədici olmasına kömək edir, onların fərdi bacarıqlarını inkişaf etdirməyə imkan yaradır. Birləşmiş Krallıqda tətbiq olunan və müxtəlif dərs fəaliyyətlərini bir-biri ilə əlaqələndirən "modul əsaslı tədris" sistemi isə şagirdlərin müxtəlif bilik sahələrində dərinləşmələrinə imkan yaradır. Bu metodlardan istifadə etmək gənclərin təhsilə marağını artırır və mənəvi inkişaflarına müsbət təsir göstərir".

### "Nəzəri metodlardan praktik təcrübə metodlarına keçilməsi köklü dəyişikliklərə səbəb ola bilər"

Kamran Əsədov vurğulayır ki, nəzəri metodlardan imtina edərək praktik təcrübə metodlarına keçilməsi təhsil sistemində köklü dəyişikliklərə səbəb ola bilər: "Praktiki təcrübə metodları şagirdlərin yalnız nəzəri biliklərə deyil, həm də bu bilikləri real həyatda tətbiq etmək bacarıqlarına yiyələnmələrini təmin edir. Bu keçid vasitəsilə gənclər dərslərdə öyrəndiklərini real həyatda tətbiq etmə bacarığı qazanır, düşüncə tərzi, analiz və tənqidi düşünmə qabiliyyətləri inkişaf edir. Şagirdlərin öz biliklərini təcrübə yolu ilə sınamaları onların təhsil prosesinə daha aktiv qatılmasına səbəb olur və öyrənmə daha səmərəli olur. Praktiki metodların üstünlüyü ondan ibarətdir ki, şagirdlər yalnız nəzəri olaraq öyrəndikləri məlumatları yadda saxlamır, həm də onları real vəziyyətlərdə tətbiq etməyi bacarırlar. Bu isə onların gələcəkdə iş həyatında daha hazırlıqlı olmalarına səbəb olur.

Ümumiyyətlə, uşaq və gənclərin mənəvi inkişafında təhsil prosesinin düzgün qurulması, praktiki və tətbiqi metodların tədrisdə geniş yer alması, fərdi inkişaf və maraqların nəzərə alınması onların gələcəkdə cəmiyyətə daha faydalı və məsuliyyətli vətəndaş olmalarına yardım edəcəkdir. Azərbaycanda təhsil sistemində bu sahədə edilən yeniliklər və əlavə ediləcək praktiki metodlar gənclərin həm bilik, həm də mənəvi baxımdan inkişaf etməsinə şərait yaradır. Beləliklə, təhsil sistemi yalnız bilik ötürməkdən ibarət olmamalı, eyni zamanda dəyərlər aşılamaq, gənclərin xarakterini formalaşdırmaq və onları həyata hazırlamaq kimi funksiyaları da yerinə yetirməlidir".

**Aynurə İSMAYIL**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# “Bu müharibədə də zəfər çalmalıyıq”

“Müasir dövrümüzün ağrılı və acınacaqlı bəlalarından biri də narkomaniyadır. Hazırda narkomaniyanın yayılması çox böyük, hətta deyərdim ki, qlobal bir problemdir. Bu, yalnız Azərbaycanı deyil, bütün dünyanı narahat edən bir problemdir. Dünya bu bəlaya qarşı mübarizə aparır. Amma təəssüflər olsun ki, bu problemi tam həll etmək hələ mümkün deyil”.



## Könül Həbibqızı: “Narkomaniyaya qarşı mübarizədə bir yumruq ətrafında birləşməliyik”

“Artıq narkotik alverçiləri orta məktəblərə də üz tutub. Məktəbliləri özləri üçün hədəf seçiblər. Çünki gözləri həyata təzəcə açılan, yaxşı və pisi bir-birindən tam ayırd edə bilməyən yeniyetmə və gənclərimiz narkotik alverçilərinin toruna asanlıqla düşə bilirlər. Bu, bizi, şəxsən iki oğul anası olaraq, məni çox narahat edir...”

“Biz övladlarımızla dost olmağı bacarsaq, kənar şəxslərin pis vərdişləri qapımızı döyməyəcək”

Bunu “Dünya” Müstəqil Teleradio Şirkətinin baş aparıcısı Könül Həbibqızı bildirib. O, deyir ki, hazırda yer kürəsinin 250 milyon sakini narkomaniyadan əziyyət çəkir:

“El arasında “ağ ölüm” kimi tanınan bəşəri bəlaya düçar olunanların sayı çox-çox təəssüf olsun ki, artmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, yer kürəsinin 250 milyon sakini planetimizin ən qlobal problemlərindən birinə çevirilən “ağ ölüm”ün əsirinə çevirilib. Bu statiskanın 47 milyon nəfəri latın Amerikasının payına düşür. Təkcə Meksikada narkomaniyaya düçar olmuş insanların sayı 1 milyon 200 min nəfəri ötüb.

Avropa Birliyi ölkələrinə gəldikdə isə, orada 750 minə yaxın insan narkotik maddə istifadəçisidir.

MDB və Asiya ölkələrində bu göstərici 26 milyondan çoxdur. Bu, artıq həyacan təbilidir”.

Baş aparıcı deyir ki, əslində, real göstəricilər statistik rəqəmlərdən daha çoxdur: “Ekspertlərin fikrincə, statistik rəqəmlər tam göstəricini əks etdirmir. Çünki narkomanların heç də hamısı qeydiyyata düşmür.

Təəssüflər olsun ki, bu bəla bizim ölkəmizdən də yan keçməyib. Doğrudur, bir sıra dünya ölkələriylə müqayisədə ölkəmizdə narkomaniya o qədər də geniş yayılmayıb, amma mövcuddur. Və ciddi mübarizələrə rəğmən, yenə də artmaqdadır.

Ölkəmizdə ilk dəfə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər ümumilli lider Heydər Əliyevin 1996-cı il, 26 avqust tarixli fərmanında öz əksini tapmışdır. Bu strateji kurs Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013 və 2018-ci illər üçün dövlət proqramı qəbul edilmişdir”.

“...Azərbaycanımızın igid oğulları var. O oğullar ki, dünyaya səs saldılar. Niyə onlar narkotik vasitələrin qurbanı olmalıdır?! Axı, bu xəstəliyə, bu asılılığa, bu faciəyə düşənlər bizim insanlardır. Odur ki, gəlin, bir-birimizə kömək edək, bu xəstəliyə, bu asılılığa, bu bəlaya yox deyək. Sözümüzün sonunda bu məsələyə də NİDA qoyaq!”

Könül Həbibqızı deyir ki, hər bir ölkədə narkomaniyanın qarşısının alınmasının əsas məqsədi sağlam mühit və sağlam gələcək yaratmaqdır: “İnsan üçün ən vacib amil sağlamlıqdır. Narkomaniyanın qarşısının alınmasının əsas məqsədi də sağlam mühit və sağlam gələcək yaratmaqdır. Buna görə, cəmiyyətdə və yaxın ətrafımızda sağlam həyat tərzini təbliğ etmək, zərərli vərdişlərə qarşı profilaktik tədbirlər görmək lazımdır. Çünki sağlamlıq insanın yalnız xəstə olmaması demək deyil, eyni zamanda onun fiziki, psixi və sosial rifahıdır. Məhz bu səbəbdən də, dövlətimiz öz vətəndaşı üçün hər şey edir. Onun sağlam yetişməsi üçün əlindən gələni əsirgəmir”.

Aparıcı hesab edir ki, narkomaniyaya qarşı ilkin mübarizə ailədən başlamalıdır: “Şəxsiyyətin formalaşması üçün cəmiyyət nə qədər önəmli faktor olsa da, əsas məsələ ilkin tərbiyə, ailə faktorudur. Biz ilk növbədə öz övladlarımızla dost olmalıyıq. Elə etməliyik ki, övladlarımız bizə etibar etsin. Belə olduqda kənar şəxslər bizim ailəmizə daxil ola bilməyəcəklər. Kənar şəxslərin pis vərdişləri bizim qapımızı döyməyəcək. Ona görə də hər şey birinci ailədən başlayır”.

Könül Həbibqızı vurğuladı ki, heç bir halda narkotik satıcılarının orta və ali təhsil müəssisələrinə ayaq açmasına imkan vermək olmaz: “Artıq narkotik alverçiləri orta məktəblərə də üz tutub. Məktəbliləri özləri üçün hədəf seçiblər. Çünki gözləri həyata təzəcə açılan, yaxşı və pisi bir-birindən tam ayırd edə bilməyən yeniyetmə və gənclərimiz narkotik alverçilərinin toruna asanlıqla düşə bilirlər. Bu, bizi, şəxsən iki oğul anası olaraq, məni çox narahat edir. Əlbəttə, mənim kimi hər bir valideyn də bundan narahatdır.

Ona görə də, mütləq şəkildə məktəblə, müəlimlə valideyn arasında sıx təmas olmalıdır. Məktəb valideynləri, valideyn də müəllimləri başa düşməlidir. “Mən dərsimi dedim, işim bitdi, gerisi mənim nəyimə lazımdır”, bu söz olmamalıdır. Eyni zamanda, “övlad mənimdir, mən özüm bilərəm, siz mənim işimə qarışmayın”, - bu kəlmələr də olmamalıdır. Biz bir olmalıyıq”.

Müsahibimiz bildirir ki, narkomaniya təhlükəsi ilə bağlı maarifçilik işləri genişlənidirilməlidir: “Bu istiqamətdə maarifləndirici işlər görülməlidir. Bu gün metroya düşürük, görürük, reklam çarxları, şəkillər asılıb ki, “Narkomaniyaya yox deyirik!”Çox gözəl, mən bunu alqışlayıram. Avtobuslara minirik, görürük ki, orada reklam çarxları var. Bunlar yaxşı haldır. Amma reklamın iki tərəfi, həm yaxşı, həm də pis tərəfi var. Ona görə, bu məsələlərdə də peşəkarların dəstəyindən istifadə olunmalıdır.

Əvvəllər belə düşünürdüm ki, məktəblərdə narkomaniya ilə bağlı məlumat vermək düzgün deyil, uşaqlarımızı tez ayıldırıq. İndi isə düşünürəm, gərək, biz övladlarımızı uşaq vaxtından başa salaq ki, narkomaniya nədir.

Maarifləndirmə üçün hər birimiz - müəllim, həkim, jurnalist, idmançı və s. öhdəmizə düşən işi icra etməliyik. Bu sahədə hər birimiz yumruq kimi bir olmalıyıq. Necə ki, 44 günlük müharibədə yumruq kimi birləşib, mənfur düşmənlərimizə öz gücümüzü göstərdik, bu da bir müharibədir, bu məsələdə də öz gücümüzü göstərməliyik. Bir yumruq ətrafında birləşməliyik. Bu müharibədə də qalib gəlməliyik, zəfər çalmalıyıq. Hamımız bir kəlməni özümüzə şüar tutmalıyıq: “Biz narkotikə yox deyirik!” Bizə sağlam həyat lazımdır. Qeyd etdiyim kimi dövlətimiz gənclərimizin sağlam yetişməsi üçün hər şey edir. Biz niyə bu gözəllikdən istifadə etməyək?! Azərbaycanımız gözəldir. Azərbaycanımızın igid oğulları var. O oğullar ki, dünyaya səs saldılar. Niyə onlar narkotik vasitələrin qurbanı olmalıdır?! Axı, bu xəstəliyə, bu asılılığa, bu faciəyə düşənlər bizim insanlardır. Odur ki, gəlin, bir-birimizə kömək edək, bu xəstəliyə, bu asılılığa, bu bəlaya yox deyək. Sözümüzün sonunda bu məsələyə də NİDA qoyaq!”

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**

# Reklamın ümumi tələbləri hüquqi müstəvidə

## Narkotik vasitələrin, psixotrop maddələrin, pornoqrafiyanın, tütün və tütün məmulatlarının və bu Qanunla reklamı qadağan olunan digər məhsulların reklamına yol verilmir...

"Reklam haqqında" Azərbaycan Respublikası Qanunun (bundan sonra-Qanun) 2.0.1-ci maddəsinə əsasən reklam istehlakçısının diqqətini reklam obyektinə müxtəlif vasitə və üsullardan istifadə olunmaqla istənilən formada cəlb etmək, marağını formalaşdırmaq və saxlamaq, əmtəəni bazarda tanıtmaq və satışını stimullaşdırmaq məqsədi ilə yayımlanan məlumat hesab olunur.




Bununla da bəlli olur ki, reklamdan bəhs edilməsi üçün yuxarıda sadalanan məqsədlərlə məlumatın yayımlanması zəruridir. Göstərilən məqsədlər birbaşa olaraq istehlakçının seçimlərinə və qərarına birbaşa təsir edir. Bu hərəkət planlı olaraq həyata keçilir və gəlir əldə etməyə yönələrək kommersiya məqsədi güdür.

Eyni zamanda reklamın məqsədi reallaşdırılarkən, yəni istehlakçını cəlb etmək prosesi həyata keçirilərkən qanunda qadağan edilməyən üsul və vasitələrdən istifadə etməklə həyata keçirilməlidir.

Burada diqqət edilməli digər məqam isə gəlir əldə etmək məqsədi güdmədən edilən əmtəəyə dair hər cür tanıtım, tərifin reklam hesab olunub-olunmayacağıdır. Qanunvericilikdə reklamın məqsədinə nəzər yetirdikdə, onun məhz kommersiya xüsusiyyətini nəzərə aldıqda, planlı qazanc əldə etmək məqsədi olmadan edilən hər hansı tanıtmaq hərəkəti də reklam hesab edilməyəcəkdir.

### Reklama dair tələblər

Reklama dair tələblər arasında əsas məsələ onun haqsız reklam kimi sayılmasının qarşısını almaqdır. Belə ki, Qanunun 4.2-ci maddəsinə əsasən reklam əmtəə istehlakçılarının seçimini stimullaşdırmalı, onları aldatmamalı, çaşqınlıq hissi yaratmamalı, rəqiblərinin istehsal etdiyi, reklam edilən əmtəə ilə eyni, yaxud onun əvəzedicisi olan başqa əmtəələrin bazar nüfuzuna xələl gətirməməlidir. Bu müddəa müxtəlif formalarda təzahür edə bilər: oxşar və eyni əmtəə və xidmətlərə dair oxşar və eyni əmtəə nişanından istifadə etməklə, digər bazar subyektinin əmtəəsi və ya öz əmtəəsi barədə həqiqətəuyğun olmayan məlumatlar yaymaqla, əmtəə barədə zəruri məlumatları istehlakçıdan qəsdən gizlətməklə, digər bazar subyektlərin işguzar nüfuzunu ləkələməklə və s. formalarda. Bu baxımdan reklama dair tələblərdə hər zaman diqqət mərkəzində hədəflənən istehlakçılar götürülür və bütün məsələlər istehlakçılar baxımdan araşdırılır.

İstehlakçıların hüquqlarının müdafiəsi haqqında Qanunun 13-cü maddəsinin 6-cı və 7-ci bəndlərində qeyd edilir:

Haqsız, qeyri-dəqiq və gizli reklam nəticəsində reklam istehlakçısına dəyən zərər məhkəmənin qərarı ilə təqsirkar bilinmiş reklam fəaliyyətinin subyekti tərəfindən ödənilir.

Mal (iş, xidmət) haqqında yanlış və ya yarımçıq məlumat, yaxud haqsız, qeyri-dəqiq və gizli reklam nəticəsində dəyən zərəri ödəmək barəsində istehlakçının tələblərinə baxılarkən onun əldə etdiyi malın (işin, xidmətin) xassələrinə və xarakteristikasına dair xüsusi biliyinin olmaması ehtimalı əsas götürülməlidir

Haqsız reklam halları daha çox oxşar əmtəə və xidmətlərdə baş tutur. Bəs bazar subyektinin əmtəə nişanından oxşar olmayan əmtəə və xidmətlərin reklamında istifadəsi necə tənzimlənəcək?

A. əmtəə nişanından ona oxşar belə olmayan digər B. adlı əmtəənin reklamında istifadə edilmişdir. A. əmtəə nişanının müstəsna hüquq sahibi digərinə qarşı "əmtəə nişanından qanunsuz istifadəyə son qoyulması, dəyən zərərin əvəzinin ödənilməsi" kimi iddia qaldırmışdır. B. adlı əmtəənin sahibi iddianın əmtəələrin oxşar və eyni olmaması səbəbi ilə əsassız olduğunu bildirmişdir. Məhkəmənin 2-2(102)-269/2021, 30.06.2021-ci il tarixli qərarında isə qeyd edilmişdir ki, "....bu yanaşmadan belə nəticəyə gəlmək olur ki, əmtəə nişanının qeydə alındığı təsnifatlardan savayı, digər bütün təsnifatlar üzrə başqa şəxslər tərəfindən istifadəsi qanuna uyğundur. Halbuki, mübahisə iki eyni və ya oxşar əmtəə nişanları ilə bağlı deyildir. Göstərilən hal "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 28-ci maddəsinin tələblərinə də ziddir. Həmin normada qeyd edilir ki, əmtəə nişanının sahibi əmtəə nişanından istifadə hüququnu lisenziya müqaviləsi,əmtəə nişanına dair hüququ isə müqavilə əsasında həmin nişanın aid edildiyi əmtəələrin və xidmətlərin hamısı və ya bir hissəsi barədə başqa şəxsə verə bilər.".

Bununla da reklamlarda əmtəə nişanından qanunsuz istifadə halı, sadəcə oxşar və eyni əmtəələrlə bağlı mübahisə baxımından araşdırılmamalı, ümumilikdə digər tərəfin əmtəə nişanından istifadənin hüquqi əsas olub-olmaması halı araşdırılmalıdır. Bəhs edilən işdə əmtəə nişanından reklamda istifadənin hüquqi əsası və tərəflər arasında bağlanılmış hər hansı müqavilə mövcud olmamışdır. Burada Cavabdeh ölkədə kifayət qədər nüfuza malik olan A əmtəə nişanın sahibi ilə öz fəaliyyətlərinin əlaqəli olduğu təəssüratını yaratmaqla istehlakçılarda çaşqınlıq yaratmışdır.

Daha sonra Qanunun 4.3-cü maddəsində qeyd edilir ki, istehsalı (satışı) lisenziyalaşdırılan, sertifikatlaşdırılan əmtəələr yalnız müvafiq təsdiqləyici sənədlər olduqda, reklam edilə bilər. Bu halda reklamda lisenziyanın və sertifikatın nömrəsi, verilmə tarixi və onu verən orqanın adı göstərilməlidir.

Burada isə aydınlaşdırılmalı məqam odur ki, reklam edilənin əmtəə yoxsa subyektin özünün olmasıdır. Hesab edək ki, X adlı MMC-nin özəl tibb fəaliyyəti ilə məşğul olan eyniadlı X və yaxud M adlı əmtəəsi var. X-in və ya M-in reklamda istifadəsi zamanı malik olduğu lisenziya barədə məlumatlarla yaymlanmalıdır. Burada lisenziyanın həqiqətən mövcud olub-olmaması, yaxud əmtəə nişanının olub-olmaması əhəmiyyət daşımır. Burada əsas məsələ özəl tibb fəaliyyəti, yəni lisenziya alınmalı olan fəaliyyətin lizensiya məlumatları olmadan reklamıdır.

Ya da X adlı MMC-nin bir neçə müxtəlif adlarda əmtəəsi və ya xidməti var. Onlardan bəziləri lisenziya alınmalı olsa da, bəziləri belə fəaliyyətə aid deyildir. Bu zaman reklamda X adının verilməsi birbaşa olaraq həmin pozuntu faktını yaratmayacaqdır. Çünki qanunverici yalnız lizensiyalaşdırılan əmtəənin reklamına dair tələblərdən bəhs edir.

Reklam dövlət əleyhinə yönələn açıq çağırışlara, dövlətə xəyanətə, terrorçuluğa, zorakılığa, təcavüzə, milli mənəvi dəyərlərə, insanların həyat və sağlamlığına, şərəf və ləyaqətinə, dini və siyasi əqidəsinə, ictimai təhlükəsizliyə, ətraf mühitə ziyan vura biləcək hərəkətlərə təhrik etməməlidir.

Reklamda əmtəənin dövlət və yerli özünüidarəetmə orqanları, dövlət mülkiyyətində yaxud asılılığında olan kommersiya və qeyri-kommersiya təşkilatları, publik hüquqi şəxslər, büdcədənkənar fondlar və ya onların vəzifəli şəxsləri tərəfindən dəstəklənməsinə yol verilmir. Belə bir pozuntuya yol verdikdə isə tədbiq ediləcək məsuliyyət reklamın yerləşdirildiyi (yayımlandığı) yerdən asılı olaraq dəyişəcəkdir. Bu pozuntuya yol verilməsi açıq məkanda yerləşdirilən reklamlarda baş tutduqda, İnzibati Xətalar Məcəlləsinin 428.7.2-ci maddəsi ("Reklam haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericilik aktlarının tələblərinə cavab verməyən reklamın açıq məkanda yerləşdirilməsinə), audiovizual mediada baş tutduqda isə İXM-in 381.6-ci maddəsi ilə (Audiovizual media, çap mediası və onlayn media subyektləri tərəfindən reklam və sponsorluqla bağlı "Media haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə riayət edilməməsinə görə) inzibati məsuliyyətə səbəb olacaqdır.

Qeyd olunanlardan əlavə reklamla bağlı digər tələblər aşağıdakılardır:

- Reklamda "Dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına riayət edilməlidir. Reklamvericinin tələbinə əsasən reklam qurğularında yerləşdirilən reklamın mətnində Azərbaycan Respublikasının dövlət dili ilə yanaşı digər dillərdən istifadə oluna bilər. Bu halda xarici dildə olan mətn dövlət dilində olan mətndən sonra yerləşdirilməli, dövlət dilində olan mətnin tutduğu sahədən böyük olmamalıdır.
- Reklam qurğuları insanların rahatlığını pozmamalı, nəqliyyat vasitələrinin hərəkətinə təhlükə yaratmamalı, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş texniki tələblərə cavab verməlidir. Reklam qurğusundan yalnız reklamın yayımlanması məqsədi ilə istifadə oluna bilər.
- Reklamda yalnız Azərbaycan Respublikası ərazisində tətbiqinə icazə verilmiş ölçü vahidlərindən istifadə olunmalı, əmtəələrin qiyməti Azərbaycan Respublikasının pul vahidi (rüsumsuz ticarət mağazaları istisna olmaqla) ilə göstərilməlidir.

Son olaraq, Qanunun 4.6-cı maddəsinə görə narkotik vasitələrin, psixotrop maddələrin, pornoqrafiyanın, tütün və tütün məmulatlarının və bu Qanunla reklamı qadağan olunan digər məhsulların reklamına yol verilmir.

Eyni zamanda qanunverici alkoqollu içkilərin reklamına müəyyən məhdudiyyətlərlə yol versə də, enerji içkilərinin reklamına hər hansı məhdudiyyət müəyyən etməmişdir. "Enerji içkilərinə dair müvəqqəti sanitariya normaları və qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının Qərarında içkinin enerji içkisi hesab edilməsi üçün meyarlar göstərilmişdir. Hər hansı içkinin bu meyarlara cavab vermədən enerji içkisi olaraq reklamı halında da aldadıcı reklam halı baş tutacaqdır.

Qeyd edilən məsələ ilə bağlı oxşar məhkəmə qərarında qeyd edilir:"..... Cavabdeh tərəfindən aparılmış araşdırma nəticəsində, "BİZON energy" adlı alkoqolsuz içkilərinin qablaşdırılmasının üzərində "E-NERGY" və "CHARGE YOUR POWER" sözləri yazmaqla İddiaçı MMC tərəfindən istehlakçılarda həmin məhsulların enerji içkisi olması təəssüratı yaradıldığı və həmin məhsulların keyfiyyəti və başqa xassələri barədə düzgün olmayan məlumatlar verilməklə haqsız rəqabətə yol verildiyi, bununla da İddiaçı MMC tərəfindən "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin ikinci abzasının tələblərinin pozulduğunu müəyyən edilmiş və nəticədə xx.xx.2021-ci il tarixli Qərar ilə onun barəsində 215.968,0 manat məbləğində maliyyə sanksiyasını tətbiq edilmişdir...".

**Aysu NƏBİZADƏ**

***Bakı Şəhəri Reklam İdarəsinin aparıcı hüquqşünası***

# Xalq Şairi Vahid Əziz poeziyası haqqında bir neçə söz

## ("Tanıdığım şairlər" silsiləsindən)

Mən az qala unutmuşdum ki, şair Vahid Əzizin... yaşı gəlir bizə tərəf. Bu qənaəti o cür saymasın oxucu ki, laqeydliyimdir, yaxud zamanın gərdişinin diqtəsidir, əsla! O qənaətdir: Vahidlə gənclik dostu, yaradıcılığının daimi izləyicisi, ən kövrək çağlarının həmsöhbət adamı kimi haqqım çatır. Və bir də mənim nəzərimdə Vahid Əziz ilk tanışlıq ilimin (1969) görünüşündədir, elə dəyişməmişdir. O, heç vaxt mənim üçün dəyişməyəcək, poeziyası qədər ucada dayanacaq, baxmayaraq yaşca ondan üç - dörd il böyüyəm. Bu sözlərimi məqaləmin fabulası hesab edin. Çün, Vahid Əziz şeiri ilahinin payıdır və unutmayaq ki, Vahid Əziz səviyyəsində elə də çox şairimiz yoxdur.





**Allahverdi Eminov**

Çağdaş poeziyamızın şəksiz böyük nümayəndələrindən bəlkə də ən seçilənidir. Mən onun yaradıcılığını 55 ildən artıqdır izləyirəm. Daha doğrusu, ilk variantını öz səsində eşidirəm. O, ilahidəngəlmə şeir yazır, özünü zorlamır və obrazları "kəşf" eləyir. Təsadüfi deyil ki, ölməz şairimiz Rəsul Rza Vahid Əzizə tələbə ikən "Drujba narodov" jurnalında "Yaxşı yol" arzulamış və bir neçə şeirini çap etdirmişdir. O vaxt biz rəhmətlik Zülfi Göyçaylının İçərişəhərin çöl divarlarına sığınmış çayxanasında görüşdük, qoltuğuna vurmuş dərgini vərəqlədi... Və bu illərdə onun elə də çox şeirlər kitabı çıxmamışdı. Bir neçəsi, o cümlədən ilk "Mən küləyi görürəm" məcmuəsi avtoqrafı ilə məndədir. Bu yazını qələmə alanda ilk və son şeirlərində paralellik axtardım. Bədiiliyini, obrazlığını, mətləblərini və sairi əsla itirməyən yaradıcılıq! Tam məsuliyyətimlə deyirəm, haşiyə çıxım ki, son 10-15 ildi ədəbi mühitdə mənfi tendensiya hökm - fərmandır. Yeni baş qaldıran (elə orta nəsil də) tənqidçilər yalnız özlərinə yaxınlarının adını çəkir, barəsində yazır, tribunalarda pafosla qiymət verirlər.

Vahid dəqiq elmlər üzrə baza təhsillidir. Deyək ki, yurdunu cənnət timsalında görüb və sevibsə, müəyyən zaman kəsiyində həmin məmləkəti bazara çeviriblərsə, şair niyə deməsin ki:

***Dəllalı kim, bu pozulmuş bazarın?***
***Daşı itib milyon-milyon bazarın!***
***Eşq üzüyü nişanlanmış bazarın***
***Niyə "adsız barmağından" asılır?***
***Sözə umma, gəzə bilməz asudə,***
***Günahkar da, inanan da, asi də.***
***"Qızıl alma" yurdu cənnət olsa da.***
***Yarasatək ayağından asılır***

Mövzu hamımızın görüb duyduğu, sadə düşünsək, dilimizdə tez-tez səslənən: "ə, bazar açma", "bura sənin üçün bazar deyil a", yaxud əksinə: "bazarın olsun" və s. Şair də bu ikiliyi görmüşdür. Lakin digər şairlərin bu misraları deyən günədək və hələlik yazmadıqları (yaza bilmədikləri) həmən klassik mexanikanın - hərəkətin dayaq nöqtələri.

Bazarın ölçüsü "mizan tərəzidir" - çəki daşıdır - meyarıdır. Nişanı reallaşdıran üzük həqiqi eşqi təmsil edirsə, adsız barmağa keçirilə bilməz, "qızıl alma - rəmzi qiymətli əşya bolluq, bərəkət, ədalət və sairin timsallı məmləkəti cənnət olmalıdır, əvəzində nə alınır? Yarasa kimi ayaqlarından asılır? Keyfiyyət, kəmiyyət münasibətlərində əriyib - itir. Şeirin məna təntənəsi!

Poeziyada poetik fikirlə bədii faktın "yerdəyişməsi" bəzilərin düşündüyü kimi, heç də antiteza prosesini doğurmur, əksinə, şairin gördüyü, duyduğu çalarları (qeyri - adilikləri) özünün edir. Əlbəttə, bu heç də tərənnüm obyektini apoefeoz yanaşmada - obyekti, yaxud subyekti ifrat tərifləmək deyil. O şairə məxsus olur ki, onun poetik idrakı intellektlə qovuşur. Uzağa getmirəm və nəzəri modellərə də istinad etmirəm, bir poetik faktı, detalı eyni fiziki müşahidəylə süzgəcdən keçirmişəm: Məndə də bədii assosasiya doğurur, bir şərtlə, prozaik ovqat yaradır. Vahid Əzizdə isə obrazlı atmacalar, aktsentoloji deyim tərzi poetik qəlbə - şeirin ölçüsünə girir və poetik faktı ümumiləşdirir. "Suxarto", "Tərsinə qandırmaq fələyin işi", "Bu dəli", "Baş daşım ucalan yerlər" şeirin predmetinə çevrilir:

***Eh, zavallı din qardaşım,***
***Bunu səndən gözləməzdim.***
***Nə dərdin vardı ki?***
***Nə Qarabağın vardı, nə də ki, xarabaların.***
***Dolanaydın ayığına, harın.***
***Heyif, yaman xoşuna gəlmişdi papağın.***
***Eh... Suxarto, Suxarto...***

Zahirən şeirdə mənim duyduğum prozaikik axtarmaq mümkün təkiddir. Lakin Vahid Əziz belə şeirlərində real mənzərə, fiziki görüm, ölçü və sairdə axtardığı keyfiyyət daxili müşahidədən - introspeksiyadan gəlir. Bu ovqatla şeirlərin spesifik davranış qaydaları vardır. Ritm, ölçü, vəzn, obraz və ilaxır fərqlənir deyimində. Bir sadə mənzərə: təbiətin əşyaları "kortəbii" hərəkətdədir, insan baxır, duyur - yaşayır. Və məhz nə üçün adiliyə uyub içərisində "dərd" edib? Bu Aydı, bu da Gecədi. Baxan da şairdi. Şair fizik deyil ki, qüvvədə olan qanunların kodifikasiyasını təmin etsin. Amma o:

***Bu gecə Ay bütöv gəlib,***
***Nur zülmətə döv gəlib***
***Mənə ulduzlar ələnib,***
***Ay - göydə dəryaz olalı, - deyir.***

Bayatı deyil, çünki intellektuallıq sadəliyi üstələmişdir. İddilik mənzərə şairlə assosiativ əlaqə doğurmuşdur. "Payız fəsli"ndə, "Səma köhnə bir sandıqdır", "Ay kimiyəm - görən olmaz" da - bu fon aydındı.

Vahid Əzizin son şeirlərində də o qənaətə gəlirsən, varlığın ritmləri davranış stixiyasını dəyişmədən ritorik təsir gücünü itirir və rezentor - didaktik adam təsirindən müəllifi uzaqlaşdırır: deyimcə nəfis, mənaca zəngin. Vahid Əziz şeirin poetik gücünü həndəsi - riyazi masştablarla ödəyə bilərdi, lakin o, paradoksallıqdan da imtina etmir. Və iki sosial - mənəvi əzablarla üzləşir. Sosial harmoniya və daxili istək! Bu səbəbdən o, poetik fikirlərin paralelliyini qəbul eləyir. Qısa qənaət şeirin nəzəriyyəsindən irəli gəlmir mənim üçün - praktik şəkildə - qələmindən çıxan nümunələrdə: fikirlərin fərdiliyindən çıxan obrazlar, deyimlər, konseptual yozumlar və sairə mübhəm hissin - intuisiyanın payı olduğunu etiraf eləyir. Bu duyğu - fəhmsə kosmik kontaktın məhsuludur və özünə güvənən yaradıcı adam heç vaxt bu Allah payını aldığını gizlətmir. Çünki bədii informasiyalar - bədii proqnozlar kosmik əlaqənin məhsuludur.

***Çox zaman baş olub həddin aşanlar,***
***Çörək qıt olanda kömək çoxalıb.***
***Niyə bu ölkədə düz danışanlar***
***Pencəksiz yaşayıb, tumancaq gəzib?***

Biz şairi, elə onların özləri də fəxrlə, həqiqəqtən belədir - ilahidəngəlmə - kosmosdan axma fikrin, hissin payını qəbul edən varlıq kimi tanıyırıq. Yoxsa son dərəcə həssas adam da şeir yazmaq eşqinə (!) düşərdi. Təəssüflü deyil ki, tarixin özünü də gələcək nəslə çatdıran informasiya mənbəyi şairlərdir, sənətkarlardır. Lakin elin - obanın dərdini nəinki əsərlərində, varlığında yaşadan onlar haqlarını heç vaxt ala bilməmişdir. Bir ovuc yaxşılıq onların payı deyil. Necə ki, Vahid Əziz bu gün də "bir ovuc"dan məhrum ömrünü sayır:

***Sözümüz gilasdı yırtıq səbətdə,***
***Axmaqlar özünü ağıllı bilər.***
***Bu qədər eşşək var bu Məmləkətdə***
***- Şairlər Saraya piyada gələr...***

Misralar şairin xalqın bir poetik təmsilçisi qismində həqiqətin real məntiqinə əsaslanmaqla, öz mənəvi - hüquqi tələblərində israrlı olur və bu prosesi şeirin informasiyasına çevirir. Vahid Əziz mühitin əksliklərini duyur və cəmiyyətdəki əksikləri insan həyatından keçən katarsisini təsvir edir. Bunu ritorik deyimlə yox, mümkün faktların unitikasiya oxuculara təqdim edir.

*(Ardı var)*

Məlumat verdiyimiz kimi, narkomaniyanın müalicə olunmasında geniş yayılmış üsullardan biri "Metadon proqramı"dır. Lakin Qazaxıstanda "Metadon proqramı"nın dövlət hesabına keçirilməsi mübahisə doğurur. Bununla belə, ölkənin Respublika Psixi Sağlamlıq Elmi-Praktik Mərkəzinin psixiatr-narkoloqu Nadejda Çerçenko hesab edir ki, Qazaxıstanda metadon terapiyasının potensialı var. Mütəxəssis opioid agonistləriylə müalicənin nə olduğu, eləcə də onun üstünlükləri və mənfi cəhətləri barədə ətraflı danışıb. Belə ki, metadon terapiyasının faydalarından danışan Çerçenko misal kimi Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) araşdırmalarının nəticələrini göstərir.



# "Metadon proqramı" nədir və nə kimi faydaları var?

## Qazaxıstanlı ekspertlər deyir ki, metadon heroindən istifadənin və ölümcül dozanın qarşısını alır, cinayətlərin sayını azaldır...




"ÜST-nin Şərqi Avropa və Asiyada apardığı tədqiqatın elmi sübutları göstərir ki, proqram heroin və digər opioid narkotiklərin istifadəsini azaltmaqda, HİV və digər yoluxucu xəstəliklər riskini, habelə cinayət nisbətlərini azaltmaqda, xəstələrin vəziyyəti və ümumi fiziki rifahını, psixo-emosional vəziyyəti yaxşılaşdırmaqda effektivdir. Bundan əlavə, anlamaq lazımdır ki, Metadon proqramı yalnız dərmanın buraxılması ilə bitmir, psixososial dəstəyə böyük diqqət yetirildiyi kompleks terapiyadır", deyə Çerçenko ifadə edir.

Ekspert qeyd edir ki, bu gün OATP Avropa İttifaqının bir çox ölkələrində, ABŞ, Kanada, Çin, Avstraliya, Gürcüstan, İran, Malayziya, Hindistan, Vyetnam, Şərqi Avropa ölkələri, Baltikyanı ölkələr, MDB ölkələrində - Azərbaycan, Ermənistan, Belarus, Qırğızıstan, Moldova, Ukrayna, Tacikistan fəal şəkildə istifadə olunur.

Mütəxəssisin fikrincə, bu üsuldan istifadə etməklə həm xəstələrin özləri, həm onların ailələri, həm də bütövlükdə cəmiyyət üçün opioid asılılığı ilə bağlı bahalı xərcləri azaltmaq mümkündür. Proqram əsasən heroindən istifadəni azaldır, həm də heroinə bağlı ölümcül dozanın, buna bağlı cinayətlərin sayını və QİÇS infeksiyası riskinin azaldır.

"OATP həmçinin QİÇS, hepatit B və C-yə yoluxma riski ilə bağlı ehtimalı azaltmağa, inyeksiya ilə narkotik istifadəçilərinin antiretrovirus müalicəyə meylini artırmağa, onların cinayət fəaliyyətini azaltmağa və sosial adaptasiyanı yaxşılaşdırmağa kömək edir. Opioid asılılığı problemi və onun nəticələri (işsizlik, ailə həyatının pozulması, kriminal davranış, müşayiət olunan yoluxucu xəstəliklər və s. şəklində) ilə qarşılaşan xəstələr və onların yaxınları üçün bu terapiya ən təsirli müalicə üsullardan biridir", deyərək Metadon terapiyasını müsbət səciyyələndirən psixiatr-narkoloq qeyd edir ki, bu metodun çatışmazlıqları da var və OATP universal deyil, çünki bu terapiya yalnız opioid asılılığı olan xəstələrə yönəlib. Xəstə spirt, trankvilizatorlar, yuxu həbləri və ya digər maddələrdən asılıdırsa, kompleks müalicə lazımdır. Həm də başa düşmək lazımdır ki, metadon terapiyası insanı asılılıqdan azad etmir, yalnız ona nəzarət etmək imkanı verir.




"Unutmaq olmaz ki, Metadon insanı asılılıqdan azad etmir, ona nəzarət etməyə imkan verir. Metadon bir "opioid agonisti"dir və onun qəbulu dayandırılsa, xəstədə "lomka" başlayacaq. Buna görə də, əgər xəstə terapiyanı dayandırmaq qərarına gəlsə, bu, həkim nəzarəti altında və lomka olmadan tədricən baş verir", deyə narkoloq bildirir. Bəs niyə müalicənin opioid agonistlərlə dəstəklənməsinə qarşı ictimai rəy mənfidir? Nadejda Çerçenko hesab edir ki, bu, Qazaxıstanın yaxın vaxtlarda narkomaniyaya qarşı mübarizədə bu üsuldan istifadə etməyə başlaması ilə bağlıdır və bu proqram haqqında hələ də yanlış təsəvvürlər yaradan miflər mövcuddur.

Məsələn, proqram haqda əsas mif ondan budur ki, metadon müalicəsi guya narkomanlara sadəcə sakitləşdirici maddə verməkdir.

"Qanuni nöqteyi-nəzərindən metadondan istifadə tamamilə qanunidir, çünki bu narkotik maddə Qazaxıstan Respublikasında qeydiyyatdan keçib və xəstə opioidlərdən asılı olduqda tibbi yardım forması kimi, yəni həkim tərəfindən qoyulmuş diaqnozla tətbiq edilir. Proqram gedişində beyin reseptorlarının blokadası narkotik "istəyini" aradan qaldırmağa imkan verir, normallaşma baş verir və xəstələrin həm fiziki, həm də psixo-emosional rifahı dəstəklənir", deyə Çerçenko fikrini ifadə edir.

Ekspertin fikrincə, metadonun təyin edilməsi o demək deyil ki, xəstə bütün həyatı boyu onun "üstündə oturacaq". Metadon müalicəsində olmaq könüllüdür, yəni xəstələrin özlərinə uyğun terapiya tapmaq şansı daha yüksəkdir. Bundan əlavə, "Metadon proqramı"nın da bir hissəsi olduğu ambulator müalicə ilə yanaşı, stasionar müalicə və tibbi-sosial reabilitasiya da mövcuddur.

Bu müalicə ilə bağlı başqa bir ümumi mif metadonun daha ağır "lomka" simptomuna səbəb olmasıdır. Bununla belə, ekspertin fikrincə, farmakoloji xüsusiyyətlərinə görə metadonun "lomka" sindromu heroinin "lomka" sindromundan daha gec başlayır və daha uzun davam edir, amma metadonun dozası tədricən azaldığına görə ona dözmək daha asandır.

Metadonun zəhərli olduğuna dair bir fikir də var. Ancaq Nadejda Çerçenkonun izah etdiyi kimi, bu, mifdən başqa bir şey deyil:

"Dünya təcrübəsi göstərir ki, bəzi xəstələr 30 il və daha çox metadon qəbul edirlər. Eyni zamanda, metadondan uzun müddət istifadənin orqanizmə zərər verdiyini təsdiqləyən heç bir fakt yoxdur. Bəzi xəstələr metadon qəbul edərkən qəbizlik, çox tərləmə, ağız quruluğu kimi yan təsirlərlə qarşılaşa bilərlər. Lakin bu simptomlar zamanla dozanın tənzimlənməsindən sonra yox olur. Metadon orqanizm üçün heroindən daha zərərli deyil. Qanunsuz küçə narkotiklərinin tərkibində çox vaxt heroini "sulandırmaq" kimi zərərli əlavələr olur".

Metadonun qaraciyəri parçaladığına dair bir mif də var. Ancaq narkoloq bildirir ki, qaraciyərdə yalnız onun işlənməsi baş verir və metadon ona zərər vermir. Mütəxəssisin sözlərinə görə, metadon bir çox digər dərmanlarla müqayisədə qaraciyər tərəfindən daha asan emal olunur.

"Metadon hepatiti və ağır qaraciyər zədəsi olan xəstələr üçün təhlükəsizdir. O immunitet sisteminə zərər vermir. Əksinə, tədqiqat nəticələri göstərir ki, metadon qəbul edən QİÇS xəstələrində antiretrovirus terapiyaya daha çox riayət olunur və sağlamlıq problemləri daha azdır. Müvafiq olaraq, onlar metadon müalicəsi görməyən narkotik istifadəçilərindən daha uzun yaşayırlar", deyə Çerçenko bildirir.




**Hazırladı: İ.SABİRQIZI**